MÜLKİ MÜDAFİƏ

M.M. Yunusov











2026

M.M.YUNUSOV

MÜLKİ MÜDAFİƏ

(Ali məktəblər üçün dərs vəsaiti)

Bakalavr səviyyəsi

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı Mühəndislik Universitetinin Elmi şurasının 30 dekabr 2025-cı il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. /Protokol № 08/

Elmi redaktor: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Hümeyrə Mustafayeva

Rəyçilər: texnika elmləri doktoru, professor
Əminağa Sadıqov

texnika üzrə fəlsəfə doktoru, dosent
Vurğun Qəhrəmanov

Mir Ramin Yunusov. Mülki müdafiə (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, – 2026, 196 səh.

Bu dərs vəsaiti mülki müdafiə üzrə nəzəri və praktiki biliklərin sistemləşdirilmiş şəkildə oxuculara çatdırılmasına xidmət edir. Vəsaitdə müasir dövrün çağırışlarına uyğun olaraq mülki müdafiənin əsas anlayışları, normativ-hüquqi bazası, təşkilati strukturu, fövqəladə halların təsnifatı, onların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə əsas tədbirlər əhatəli şəkildə izah olunur. Eyni zamanda, dərs vəsaitində Azərbaycan Respublikasında mülki müdafiə sahəsində həyata keçirilən islahatlar, beynəlxalq təcrübə və əməkdaşlıq məsələlərinə də xüsusi yer ayrılmışdır.

Dərs vəsaiti ali və orta ixtisas təhsili müəssisələrində "Mülki müdafiə" fənnini tədris edən müəllim və tələbələr, eləcə də fövqəladə hallarla bağlı biliklərini artırmaq istəyən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Əminik ki, təqdim olunan materiallar oxuculara fövqəladə hallarda düzgün qərar vermə, özünü və ətrafındakıları qoruma bacarığını aşılamaqda faydalı olacaqdır.

Vəsaitin hazırlanmasında müvafiq normativ sənədlərə, elmi mənbələrə və praktik təcrübəyə istinad olunmuş, eyni zamanda Azərbaycan reallıqları və mövcud qanunvericilik nəzərə alınmışdır.

© Mir Ramin Yunusov
Orcid ID: 0009-0005-8323-4279
DOI: https://doi.org/10.36719/0864/2026

MÜNDƏRİCAT

Ön söz 6

FƏSİL 1. MÜLKİ MÜDAFİƏYƏ GİRİŞ 11

1.1.Müasir dövrdə mülki müdafiənin tərifi və məqsədi. Əsas terminlər 11

1.2.Mülki müdafiənin tarixi və onun müasir cəmiyyətdə aktuallığı 16

1.3.Beynəlxalq səviyyədə mülki müdafiə təşkilatlarının strukturu və funksiyaları 23

1.4.Fövqəladə halların təsnifatı. Sülh və hərbi mənşəli fövqəladə hallar 37

I fəsil üzrə yoxlama suallar 50

FƏSİL 2. AZƏRBAYCAN RESPUBLİKASINDA MÜLKİ MÜDAFİƏ ÜZRƏ QANUNVERİCİLİYİN TƏLƏBLƏRİ, FÖVQƏLADƏ HALLARIN İDARƏ EDİLMƏSİ VƏ HAZIRLIQ 56

2.1. Azərbaycan Respublikasının Mülki müdafiə sahəsində qanunvericiliyi və əsas rəhbər sənədlər. Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan dövlət sistemi. 56

2.2. Fövqəladə hallar komissiyası. Mülki müdafiə qərargahları və onların əsas vəzifələri 61

2.3. Mülki müdafiə tədbirlərinin planlaşdırılması və əhalinin fövqəladə hallardan müdafiə sahəsində hazırlığı 66

2.4. Azərbaycan respublikasında fövqəladə hallardan müdafiə sahəsində əhalinin hazırlanması 72

2.5. Fövqəladə hallar zamanı və mülki müdafiə sahəsində Fövqəladə Hallar Nazirliyinin vəzifələri..... 75

II fəsil üzrə yoxlama suallar..... 80

FƏSİL 3. KÜTLƏVİ QIRĞIN SİLAHLARININ NÖVLƏRİ VƏ ONLARIN ZƏDƏLƏYİCİ AMİLLƏRİ. ADİ QIRĞIN VASİTƏLƏRİ 84

3.1. Hərbi mənşəli fövqəladə hallar. Nüvə silahı və onun xüsusiyyəti. Nüvə zədələnmə ocağı və onun zədələyici amilləri. 84

3.2. Neytron silahı və onun zədələyici xüsusiyyətləri. Hidrogen bombası 97

3.3. Kimyəvi və bakterioloji silahlar. Zəhərləyici və güclü təsirli zəhərli maddələr..... 100

3.4. Adi qırğın vasitələri və onların xarakteristikası..... 106

III fəsil üzrə yoxlama suallar 109

FƏSİL 4. FÖVQƏLADƏ HALLAR ZAMANI YARANMIŞ ŞƏRAİTİN AYDINLAŞDIRILMASI. MÜLKİ MÜDAFİƏ KƏŞFİYYATININ APARILMASI 112

4.1. Mülki müdafiə kəşfiyyatının növləri, təşkili və aparılması 112

4.2. Kütləvi qırğın silahlarının tətbiqi nəticəsində yaranan şəraitin müəyyən olunması və vəziyyətin qiymətləndirilməsi..... 122

IV fəsil üzrə yoxlama suallar 125

FƏSİL 5. FÖVQƏLADƏ HALLAR ZAMANI ƏHALİNİN MÜHAFİZƏSİ VƏ KÖÇÜRÜLMƏSİ (EVAKUASİYA).

QƏZA-XİLASETMƏ VƏ DİGƏR TƏXİRƏSALINMAZ İŞLƏR 128

5.1. Fövqəladə hallar baş verdiyi zaman əhalinin mühafizəsinin əsas prinsipləri..... 128

5.2. Fövqəladə hallarda köçürülmə (təxliyə, evakuasiya) və onun təşkili..... 130

5.3. Fərdi mühafizə vasitələri və kollektiv mühafizə qurğuları . 138

5.4. Fövqəladə halların nəticələrinin aradan qaldırılması, qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin təşkili 151

V fəsil üzrə yoxlama suallar..... 156

FƏSİL 6. FÖVQƏLADƏ HALLAR ZAMANI İLK TİBBİ YARDIM. TİBBİ MÜHAFİZƏ VASİTƏLƏRİ. İLK YARDIM DƏSTİ 161

6.1. Azərbaycan Respublikası ərazisində fövqəladə hallar zamanı ilk tibbi yardımın hüquqi və nəzəri əsasları..... 161

6.2. Fövqəladə hallar zamanı ilk yardımın növləri və göstərilməsi qaydası 167

6.3. Tibbi mühafizə dəstləri. İlk yardım dəstinin əsas elementləri 185

VI fəsil üzrə yoxlama test sualları..... 189

Yoxlama suallarının düzgün cavabları 191

Ədəbiyyat 192

Ön söz

XXI əsrin çağırışları bəşəriyyəti bir sıra qlobal və regional təhlükələrlə üz-üzə qoymuşdur. Sürətlə inkişaf edən sənaye və texnologiyalar, iqlim dəyişikliyi, ekoloji fəlakətlər, təbii hadisələr və insan fəaliyyəti nəticəsində baş verən fövqəladə hallar müasir cəmiyyətin təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Eyni zamanda, regional və beynəlxalq münaqişələr, terrorizm və kütləvi qırğın silahlarının yayılma riski də təhlükəsizlik sistemlərinin daha da gücləndirilməsini və əhalinin mühafizəsini prioritet məsələyə çevirir. Bu reallıqlar fonunda mülki müdafiə sahəsinin əhəmiyyəti hər zamankından daha aktual və həyati önəm daşıyır.

Mülki müdafiə – təkcə fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə məhdudlaşmayan, həm də risklərin qarşısının alınması, əhalinin və obyektlərin qorunması, insanların həyat və sağlamlığının təmin olunması istiqamətində kompleks tədbirlər toplusudur. Müasir dövrdə bu sahə həm beynəlxalq hüquqi sənədlərdə, həm də milli qanunvericiliklərdə xüsusi yer tutur. Xüsusilə Azərbaycanın coğrafi mövqeyi, seysmik və texnogen risklərə məruz qalması, ekoloji həssaslıq və strateji

obyektlərin mövcudluğu mülki müdafiə sisteminin daim inkişaf etdirilməsini və əhalinin bu sahədə maarifləndirilməsini zəruri edir.

Azərbaycan Respublikasında mülki müdafiə sistemi ümummilli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi fəaliyyət göstərir və əhalinin müdafiəsi sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət siyasətinin əsas prioritetlərindən biri də məhz insan təhlükəsizliyinin təmin olunmasıdır. Fövqəladə Hallar Nazirliyinin yaradılması və fəaliyyət göstərməsi bu sahədə kompleks və sistemli yanaşmanın bariz nümunəsidir.

Əhalinin fövqəladə hallara hazırlığı və onların nəticələrinin aradan qaldırılması üzrə bilik və vərdişlərin aşılanması məqsədilə hazırlanan bu dərs vəsaiti mülki müdafiə sahəsində nəzəri və praktiki məlumatların sistemli şəkildə təqdim olunmasını hədəfləyir. Vəsaitin əsas məqsədi oxuculara mülki müdafiənin mahiyyəti, tarixi inkişafı, beynəlxalq təcrübə, Azərbaycan Respublikasında mövcud hüquqi çərçivə və təşkilati strukturlar, fövqəladə halların növləri və onların idarə olunması,

əhalinin mühafizəsi və tibbi yardım tədbirləri barədə dolğun məlumatlar verməkdir.

Hazırda ali və orta ixtisas təhsili müəssisələrində, müxtəlif təşkilat və idarələrdə mülki müdafiə üzrə biliklərin artırılması, fövqəladə hallarda davranış qaydalarının öyrədilməsi mühüm bir prosesə çevrilmişdir. Təqdim olunan bu dərs vəsaiti məhz bu ehtiyacları nəzərə alaraq hazırlanmışdır və mülki müdafiə fənninin nəzəri, hüquqi və praktik aspektlərini əhatə edən sistemli, strukturlaşdırılmış və elmi əsaslandırılmış bir vəsaitdir.

Vəsaitin birinci fəslində mülki müdafiənin tərifi, məqsədi, əsas anlayışlar, bu sahənin tarixi inkişafı və müasir cəmiyyət üçün əhəmiyyəti şərh olunur. Burada həmçinin beynəlxalq mülki müdafiə təşkilatlarının strukturu və funksiyalarına dair məlumatlar da təqdim edilir. Bu, oxucuya qlobal miqyasda mövcud sistemlər barədə ümumi təsəvvür formalaşdırmağa yardım edir.

İkinci fəsildə Azərbaycan Respublikasında mülki müdafiə sahəsində qəbul edilmiş qanunvericilik aktları və normativ sənədlər təhlil olunur. Fövqəladə halların idarə olunması üzrə dövlət strukturlarının fəaliyyəti, Mülki Müdafiə qərargahlarının funksiyaları və əhalinin bu sahədə hazırlanması prinsipləri ətraflı şəkildə izah edilir. Bu fəsil xüsusilə yerli kontekstdə mövcud olan

hüquqi və institusional baza ilə tanışlıq üçün dəyərli material təqdim edir.

Üçüncü fəslin əsas diqqət mərkəzində hərbi mənşəli fövqəladə hallar – xüsusilə kütləvi qırğın silahlarının (nüvə, kimyəvi, bioloji və s.) zədələyici amilləri durur. Burada həmçinin adi qırğın vasitələrinin təsiri və bu silahların nəticələrinin qiymətləndirilməsi üzrə vacib bilgilər yer alır.

Dördüncü fəsil mülki müdafiə kəşfiyyatının təşkili, fövqəladə hallar zamanı əmələ gələn şəraitin öyrənilməsi və onun qiymətləndirilməsi məsələlərini əhatə edir. Oxucular bu fəsildə real vaxtda situasiyanın qiymətləndirilməsi, təhlükəli zonaların müəyyənləşdirilməsi və müvafiq tədbirlərin planlaşdırılması prosesləri ilə tanış olurlar.

Beşinci fəsildə əhalinin fövqəladə hallardan mühafizəsi, evakuasiya tədbirlərinin təşkili, fərdi və kollektiv mühafizə vasitələrinin tətbiqi və qəza-xilasetmə işlərinin təşkili üzrə əsas anlayış və prosedurlar təqdim olunur. Bu bölmə praktiki vərdişlərin formalaşdırılması baxımından xüsusilə faydalıdır.

Altıncı və sonuncu fəsildə isə fövqəladə hallar zamanı ilk tibbi yardımın təşkili, tibbi mühafizə vasitələri və ilk yardım dəstlərinin tərkibi ilə bağlı ətraflı məlumat verilir. Bu fəsil oxucuların praktiki bilik və bacarıqlarının artırılmasına yönəlib və

fövqəladə hallar zamanı həyati əhəmiyyət daşıyan ilkin tibbi müdaxilə haqqında bilikləri genişləndirir.

Hər bir fəsilin sonunda təqdim olunan yoxlama sualları və testlər vasitəsilə oxucular əldə etdikləri bilikləri möhkəmləndirə və öz hazırlıq səviyyələrini dəyərləndirə bilərlər.

Dərs vəsaiti ali məktəblərin tələbələri, müəllim heyəti, müvafiq dövlət qurumlarının əməkdaşları, mülki müdafiə və fövqəladə hallar sahəsində çalışan mütəxəssislər, eyni zamanda təhlükəsizlik və risklərin idarə olunması sahəsinə marağı olan şəxslər üçün nəzərdə tutulmuşdur.

FƏSİL 1
MÜLKİ MÜDAFİƏYƏ GİRİŞ

1.1. Müasir dövrdə mülki müdafiənin tərifi və məqsədi. Əsas terminlər

Müasir dönəmdə baş vermiş fövqəladə halların artan dinamikası nəticəsində əhali və ərəzilərin təhlükəsizliyinin təminatı aktual məsələyə çevrilmişdir. Buna səbəb, müxtəlif iqlim dəyişmələri, ölkələrarası müharibə, kiberhücumlar, elm və texnikanın sürətlə inkişafı, bu inkişaf nəticəsində fövqəladə hal risklərinin artması, sənayedə, nəqliyyatda, ətraf mühitdə və digər bütün sahələrdə irili-xırdalı fövqəladə halların baş verməsidir. İri miqyaslı fövqəladə hal risklərini maksimum azaltmaq məqsədilə icrası qanunvericiliklə tələb olunan və beynəlxalq standartların tövsiyələri əsasında mülki müdafiə tədbirlərinin keçirilməsi və icrası məqsədəuyğun hesab edilir.

Mülki Müdafiə - əhalinin fövqəladə hallar qarşı hazırlığı və fövqəladə hallar zamanı qorunması haqqında elmdir.

Mülki müdafiə, müəyyən bir ərazidə (ölkə, şəhər, rayon, qəsəbə, kənd və s.) baş verə biləcək sülh və ya müharibə xarakterli fövqəladə hallara qarşı əvvəlcədən hazırlıq məqsədilə təşkil olunan və icra edilən tədbirlər sistemdir. Bu sistem, dövlət

təşkilatlarını, yerli və ictimai idarəetmə orqanlarını, hökümət və qeyri-hökümət təşkilatlarını, idarə və müəssisələri əhatə edir. Mülki müdafiənin məqsədi, əhalini və əraziləri təhlükə və fəlakətlərdən qorumaq, onların təhlükəsizliyini təmin etmək və böhranlar zamanı cəmiyyətin dayanıqlığını qoruyub saxlamaqdır.

Əhalinin təhlükəsizliyinin təmin edilməsi sahəsində Baş verə biləcək fövqəladə halları proqnozlaşdırmaq, onların zərərverici təsirini aradan qaldırmaq və ya zəiflətmək, fövqəladə hal nəticəsində xəsarət almış şəxsləri təhlükəsiz ərazilərə köçürmək kimi həyata keçirilən dövlət siyasəti nəticəsində mülki müdafiənin məqsədlərinə nail olmaq mümkündür. Mülki müdafiənin əsas məqsədləri aşağıdakılardır:

1) fövqəladə hadisələrin qarşısının alınması məqsədi ilə profilaktik tədbirlərin həyata keçirilməsi;

2) fövqəladə hadisələr zamanı mümkün olan ziyan və itkilərin həcminin maksimum azaldılması;

3) fövqəladə hadisələr nəticəsində yaranan amillərin aradan qaldırılması.

Aşağıda Mülki müdafiə elmində istifadə olunan bəzi termin və anlayışlar qeyd edilmişdir:

1. Mülki müdafiə – sülh və ya müharibə şəraitində əhalinin və ərazilərin təhlükəsizliyini təmin etmək məqsədilə

dövlət orqanları, hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən tədbirlər kompleksidir.

2. Mülki müdafiə sistemi – mülki müdafiə tədbirlərini yerinə yetirmək səlahiyyəti verilmiş icra hakimiyyəti orqanları, onların tabeliyindəki qüvvə və vasitələr, xüsusi ehtiyat fondları, xəbərdarlıq, informasiya və rabitə təminatı sistemlərinin bütövlüyüdür.

3. Fövqəladə vəziyyət – fövqəladə hadisələrin baş verməsi nəticəsində müəyyən bir ərazidə yaranan ictimai qayda və həyat şəraitinin pozulması vəziyyətidir.

4. Fövqəladə hal – insanların həyatına, sağlamlığına və ətraf mühitə təhlükə törədə biləcək və ya artıq zərər vermiş hadisədir; bu, təbii fəlakət, texnogen qəza, hərbi əməliyyatlar və digər səbəblərdən qaynaqlana bilər.

5. Proqnoz – potensial fövqəladə hallar zamanı insanlara və ətraf mühitə zərər yetirə biləcək risklərin əvvəlcədən müəyyənləşdirilməsi və bu təhlükələrin minimuma endirilməsi üçün aparılan təhlildir.

6. Planlaşdırma – fövqəladə hadisələrin qarşısını almaq və ya onların nəticələrinin genişlənməsinin qarşısını almaq məqsədilə müvafiq qurumlar və xilasetmə qüvvələrinin

əlaqələndirilmiş fəaliyyətini təmin edən tədbirlərin hazırlanması prosesidir.

7. Müdaxilə – fövqəladə vəziyyətin mənfi təsirlərini azaltmaq və əhalinin təhlükəsizliyini təmin etmək üçün həyata keçirilən operativ tədbirlər toplusudur.

8. Maarifləndirmə – əhalinin fövqəladə hallar barədə məlumatlandırılması və bu hallarda necə davranmalı olduqları barədə düzgün bilgilərin çatdırılması fəaliyyətidir.

9. Bərpaetmə – fövqəladə hadisədən sonra yaranan fəsadların aradan qaldırılması, zərərçəkənlərə dəstək göstərilməsi, əsas infrastrukturun və xidmətlərin bərpası istiqamətində həyata keçirilən tədbirlərdir.

10. Fövqəladə halların qarşısının alınması – potensial fövqəladə hadisələrin baş vermə ehtimalını azaltmaq, ətraf mühitə və maddi sərvətlərə dəyə biləcək zərərlərin qarşısını almaq məqsədilə əvvəlcədən görülən qabaqlayıcı tədbirlərdir.

11. Fövqəladə halların nəticələrinin aradan qaldırılması – insanların həyatını qorumaq, ətraf mühitə və maddi dəyərlərə dəymiş ziyanın azaldılmasını təmin etmək üçün həyata keçirilən qəza-xilasetmə işləri və digər təxirəsalınmaz tədbirlərdir.

İrimiqyaslı fövqəladə hallar, müxtəlif xarakterli fəlakətlər, habelə silahlı münaqişələr zamanı mülki müdafiə:

▪ əhali və ərazilərin mühafizəsi, zərərçəkmiş şəxslərin xilas edilməsini;

▪ müvafiq idarəetmə orqanlarının, əlaqədar qurumların koordinasiyalı şəkildə fəaliyyətini;

▪ xilasetmə qruplarının işinin təşkilini;

▪ mədəni sərvətlərin qorunmasını;

▪ zərərin qarşısını almaq və ya azaltmaq üçün profilaktik tədbirlərini;

▪ baş vermiş fəlakətdən sonra yenidənbərpa işlərinin görülməsini, əhalinin həyat və sağlamlığının normallaşdırılmasını təmin edir.

Mülki müdafiə, nəticəsi uzunmüddətli və gec bərpa oluna bilən fəlakətlərə hazırlığın, davamlılığın və bu perspektivdə əsas idarəedici qurumların, təşkilatların, və digər əlaqədar orqan və qurumların birgə fəaliyyətini təmin edən sistemdir. O, həmçinin böhran vəziyyətlərində idarəetməni təşkil edir, həmçinin, baş verə biləcək fövqəladə hallar barəsində əhalinin xəbərdar edilməsini, fəlakət zamanı qoruyucu vasitələrin təmin edilməsini, axtarış-xilasetmə işlərini həyata keçirən vasitədir.

Azərbaycan Respublikasında mülki müdafiə aşağıdakı prinsiplər əsasında təşkil edilir:

1. ərazi prinsipi - mülki müdafiə tədbirlərinin ölkənin bütün ərazisində təşkil edilməsi;

2. fərqli və kompleks yanaşma prinsipi – mülki müdafiə tədbirlərinin ölkə ərazisinin, müxtəlif təyinatlı obyektlərin hərbi-strateji, iqtisadi və digər xüsusiyyətləri nəzərə alınmaqla planlaşdırılması və əlaqələndirmiş şəkildə həyata keçirilməsi;

3. kütləvilik və məcburilik prinsipi - mülki müdafiə tədbirlərinin ölkənin bütün əhalisini əhatə etməsi və məcburi xarakter daşıması;

4. daimi hazırlıq prinsipi - mülki müdafiə sisteminin fövqəladə hadisələr zamanı dərhal və səmərəli fəaliyyətə hazır vəziyyətdə olması;

5. dərhal xəbərdarlıq prinsipi - fövqəladə hadisələr haqqında əhaliyə dərhal məlumat verilməsi;

6. qarşılıqlı əlaqə prinsipi - dövlət orqanlarının və mülki müdafiə qüvvələrinin sıx və uzlaşdırılmış fəaliyyət göstərməsi.

1.2. Mülki müdafiənin tarixi və onun müasir cəmiyyətdə aktuallığı

Tarix boyu dövlətlər və hökümətlər arasında müxtəlif mənşəli münaqişələr baş vermişdir. Bu münaqişələr dinc əhalinin məhv edilməsinə, ətraf mühitin pozulmasına səbəb olmuşdur. XIV əsrdə odlu silahların ixtira olunmasından sonra münaqişələrdə

yeni era başlamış, sonradan bu cür silahların texniki cəhətdən inkişafı və hava hücumlarında tətbiqi daha geniş kütlənin məhv edilməsinə yol açmışdır.

Mülki müdafiənin termin olaraq yaranması yaxın zamana təsadüf etsə də, bu anlayışın ifadə etdiyi əsas məsələlərin özü uzun bir tarixə malikdir. Qədim dövrlərdə Bu tarix müharibələr zamanı əhalinin təhlükəsizliyinin qorunması və şəhərlərin işğalçılardan qorunması üçün divarların və xəndəklərin tikildiyi qədim dövrlərə qədər gedib çıxır. Bununla belə, mülki müdafiə 20-ci əsrdə, xüsusən də Dünya Müharibələri və Soyuq Müharibə dövründə havadan təşkil olunan bombardmanlar, nüvə, kimyəvi və bioloji silahların tətbiqi üzrə təhlükəsinin artdığı dövrlərdə daha mütəşəkkil və vacib hala gəldi.

Mülki müdafiə bir dövlətin öz vətəndaşlarını (dinc əhalini) müxtəlif xarakterli fəlakətlərdən qorumaq səyidir. O, fövqəladə halların qarşısının alınması, təsirinin azaldılması, hazırlıq və cavab tədbirləri, eləcə də, təxliyə proseslərinin prinsiplərini özündə birləşdirir. Bu kimi prosedurlar, ilkin olaraq, 1920-ci illərdə, xüsusilə, I Dünya Müharibəsindən sonra aktual məsələyə çevrildi. Növbəti illərdə, artıq baş verməsi hiss olunan II Dünya Müharibəsinin təhlükəsi, eləcə də, hava bombardmanı təhlükələri artırdı.

Birinci Dünya Müharibəsində ölkələr düşmənin müharibə aparmaq qabiliyyətini və iradəsini aşağı salmaq üçün yeni bir hücum növü kimi dinc əhaliyə qarşı strateji hava zərbələri tətbiq edirdi. Almaniyanın Fransa, Belçika və Polşa kimi ölkələrin şəhərlərini havadan bombardmanı 1914-cü ilin avqustunda başladı və növbəti ildə Almaniya İmperatoru Kayzer Vilhelm hərbi və mülki hədəflərə, xüsusilə İngiltərəyə qarşı davamlı bombardman kampaniyalarına start verdi. 1915-ci ilin mayından oktyabr ayına qədər Almaniya, təkcə Londona qarşı yeddi hava hücumu təşkil etdi. İngiltərədə, o zamankı əksər dövlətlər kimi, bu cür hücumlar zamanı vətəndaşlara kömək etmək üçün mütəşəkkil bir mülki müdafiə proqramı yox idi. Əhali öz təhlükəsizliyini təmin etmək üçün uyğun yollar axtarmağa məcbur olurdular. Dinc əhali şəhərin yeraltı metro stansiyalarına sığınırdılar. Bütün qiymətləndirmələrə görə, bu bombardman əməliyyatları nəticəsində dəyən zərər və tələfat rəqəmləri, eləcə də, ictimaiyyətə dəyən psixoloji zərbə çox yüksək idi. Bu, artıq kütləvi şəkildə ictimaiyyəti qorumaq üçün bir sıra tədbirləri əhatə edən sistemin gələcək müharibələrin əsas qurğusuna çevriləcəyini açıq-aydın sübut edirdi.


Mülki müdafiə İkinci Dünya Müharibəsi zamanı (1939-1945) təsirə qalmış ölkələrin öz mülki əhalisini hava hücumlarından, bombardmanlardan və digər müharibə

təhlükələrindən qorumaq zərurəti yarandıqda ön plana çıxdı. Həmin dövrdə müxtəlif ölkələrdə mülki müdafiə tədbirləri, o cümlədən, təhlükə barəsində xəbərdarlıq sistemləri, hava hücumundan müdafiə üçün mühəndis sistemləri yaradıldı və əhali ilk yardım təlimlərinə cəlb edildi. Artıq, İkinci Dünya Müharibəsinin gedişində müharibə şəraitində olan bir çox ölkələrin öz əhalisini düşmən hücumlarından qorumaq üçün mülki müdafiə proqramları var idi. Məsələn, Almaniyada hava hücumundan müdafiə sığınacaqları, yanğınsöndürmə briqadalarını və hava hücumundan müdafiə bölmələrini idarə edən mülki müdafiə təşkilatı olan Reichsluftschutzbund (RLB) mövcud idi. Yaponiyada öz vəzifələrindən əlavə mülki müdafiə vəzifələrini də yerinə yetirən "Milli Könüllü Müdafiə Korpusu" adlı polis qüvvəsi var idi.

Soyuq Müharibə Dövrü (1947-1991) dünyada qlobal gərginliyi gücləndirdi və hərtərəfli Mülki Müdafiə proqramlarının yaradılması ilə nəticələndi. Buna səbəb, nüvə müharibəsi təhlükəsinin güclənməsi idi. O dövrdə, dövlətlər, xüsusilə, ABŞ və Sovet İttifaqı nüvə təhlükəsinə hazırlığa ciddi şəkildə diqqət yetirdilər. Bura, bombardman və radiasiya əleyhinə sığınacaqların tikintisi də daxil olmaqla, nüvə hücumu zamanı vətəndaşları qorumaq üçün planların hazırlanması, qida və su ehtiyatının

toplanması, radiasiya aşkar edən cihazların paylanması kimi müxtəlif prosedurların həyat keçirilməsi aid idi. Bundan başqa, mülki müdafiə tədbirlərinə xəbərdarlıq sistemlərinin təşkili və fəlakət zamanı təlimlər də daxil edilmişdir.

Soyuq Müharibənin başa çatması nəticəsində gərginliyin azalması ilə mülki müdafiənin tətbiq istiqaməti baş verə biləcək genişmiqyaslı fövqəladə hallar, eləcə də, təbii fəlakətlər, meşə yanğınları da daxil olmaqla böyük əraziləri əhatə edən yanğınlar və terrorizm kimi təhlükələrə doğru yönəldi. Mülki müdafiədə Soyuq Müharibədən sonrakı dövr, nüvə müharibəsi təhlükəsinin azalması və digər böyük fəlakətlərə səbəb olan fövqəladə hallara



Şəkil 1.1. Mülki müdafiə simvolu

diqqətin artması səbəbindən əhatə dairəsinin əhəmiyyətli dərəcədə dəyişdiyi dövrdür.

Bu dövrdə mülki müdafiə sahəsində sürətlə atılan addımlar nəticəsində bu prosedurların müəyyən bir simvol altında aparılması qərara alınmışdır. Belə ki, 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına Əlavə Protokolun 66-cı maddəsinin 4-cü bəndində Mülki müdafiənin beynəlxalq fərqləndirici əlaməti kimi mülki müdafiə təşkilatlarının, onların şəxsi heyətinin, bina və materialların və mülki sığınacaqların mühafizəsi üçün simvolik işarə narıncı fon üzərində mavi rəngdə bərabərtərəfli üçbucaq qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, sözügedən simvolik işarə günümüzə qədər bu sahə ilə məşğul olan müxtəlif təşkilatların, dövlət orqanlarının emblemlərinin bir parçasına çevrilmişdir.

Müasir texnologiyaların və sənayenin dinamik şəkildə inkişaf dövrünü özündə əks etdirən XXI əsr mülki müdafiəsi erkən xəbərdarlıq sistemlərini, rabitə və fəlakətlərin idarə edilməsi üçün qabaqcıl texnologiyaları özündə birləşdirərək yeni təhdidlərə uyğunlaşdırılmışdır. Texniki sistemlərin optimallaşdırılması və internetdən istifadənin geniş şəkildə yayılması yeni dövr üçün kiberrisklərin yaranmasına səbəb olmuşdur ki, bu da özlüyündə informasiya təhlükəsizliyi münaqişəsinin əmələ gəlməsinə, eləcə

də əhali arasında sosial xarakterli fövqəladə halların baş verməsinə zəmin yaratmışdır. Bundan başqa, yeni dövrün mülki müdafiəsinə aid olan humanitar işlərin təşkili çərçivəsində "mülki mühafizə" anlayışı meydana gəlmişdir. Mülki mühafizə, fəlakətlər zamanı insanların təxliyəsi (təhlükəsiz zonalarda-çadır, sığınacaq və s. yerləşdirilməsi), onların təchizatı (qida, su, dərman, sığınacaq əşyaları, fərdi mühafizə vasitələri və s.) məsələləri ilə məşğul olur.

1.3. Beynəlxalq səviyyədə mülki müdafiə təşkilatlarının strukturu və funksiyaları

Mülki müdafiənin inkişaf tarixində hər bir dövlət öz "mülki müdafiə modeli"ni hazırlayıb, tətbiq etmişdir. Lakin, mülki müdafiənin təmsil etdiyi *fövqəladə hallara hazırlıq, cavab və bərpaetmə* məsələsi bəzən dünyanın əsas müzakirə mövzusuna çevrilə bilər. Bundan başqa, bütün sahələrdə olduğu kimi, bu sahədə də müxtəlif ölkələrin mülki müdafiə təşkilatlarının hazırlığını yüksəltmək, əldə olunan təcrübələrin vahid mərkəzdən paylaşılmasını təmin etmək məqsədilə beynəlxalq təşkilatların yaranmasına ehtiyac vardır.

Beynəlxalq Mülki Müdafiə Təşkilatı (BMMT). Qeyd edilən məsələ ilə bağlı ilk yaranan təşkilat kimi 1931-ci ilin may ayının 28-də Fransanın Paris şəhərində tibb xidməti üzrə general Corc Sent-Pol-un "Cenevrə Zonası Assosiasiyasını" göstərmək olar. I Dünya Müharibəsi müharibəsi zamanı (1914-1918) əhalinin məruz qaldığı



Şəkil 1.2. Cenevrə regionu Assosiasiyasının banisi Corc Sant-Pol

vəhşilik və qəddarlığın nəticələri fransız generalına mülki şəxslərin, xüsusən də qadınların, uşaqların, qocaların və zəiflərin müharibə zamanı sığınacaq axtara biləcəyi təhlükəsiz ərazilər və ya zərərsizləşdirilmiş zonalar yaratmaq ideyasını verdi. Bu təşkilatın əsas məqsədi, dünya ölkələrində əhalinin bəzi kateqoriyalarından olan qadınların, uşaqların, xəstələrin və qocaların fəlakətlərdən qorunması üçün təhlükəsizlik zonalarının yaradılması idi.

Yaradılmasından qısa müddət sonra Assosiasiyanın üzvlərinin sayı 5000-ə çatdı. Bura, müxtəlif həyat şəraitinə malik, din və dil, eləcə də, irq müxtəlifliyi olan müxtəlif kateqoriyadan olan insanlar daxil idi. Bu, o zaman üçün böyük uğur sayılırdı!

1935-ci ilin iyununda Fransa Parlamenti Assosiasiyanı rəsmi olaraq tanıdı. Lakin, qısa müddətdən sonra Corc Sant-Polun vəfat etməsinə baxmayaraq, onun vəsiyyəti ilə 1937-ci ildə Assosiasiya Paris şəhərindən Cenevrə şəhərinə köçürülərək "Müharibə zamanı Mülki Əhalinin və Tarixi Binaların Müdafiəsi üzrə Beynəlxalq Assosiasiya" kimi fəaliyyətini davam etdirir. Bu dövrdə generalın məsləkdaşı Henri Corcun həmin Assosiasiyaya rəhbərliyi ilə 1936-ci ildə İspaniya dövlətində hökm sürmüş vətəndaş müharibəsində əhalinin müəyyən hissəsi üçün Madriddə və Bilbaoda, 1937-ci ildə isə Çin və Yaponiya dövlətləri arasında

baş verən münaqişə zamanı Şanxayda bitərəf zona yaradılmış, mülki əhalinin qorunmasının mümkün olduğunu nümayiş etdirilmişdir. Bundan başqa, Assosiasiya tərəfindən II Dünya Müharibəsi zamanı əhali üçün sığınacaq yerlərinin yaradılmasına çağırış etdi.

1947-ci ildə Henri Corcun müəllifi olduğu "Müasir dönəmdə müharibələr zamanı əhalinin mühafizəsi" adlı kitab Assosiasiyanın manifesti olmuşdur. Bu manifestin əsas ideyası və prinsipi 1949-cu ilin avqust ayında keçirilmiş Cenevrə diplomatik konfransında qəbul edilən sənədlərin əsasını təşkil etmişdir. Belə ki, həmin sənədlərdə "Cenevrə regionu" adında təhlükəsiz zona və ya regionların yaradılmasını nəzərdə tutan Beynəlxalq Konvensiya layihəsi təqdim olunmuşdur. Həmin konfransda üç Cenevrə Konvensiyasına yenidən baxılmış və müharibə şəraitində əhalinin mühafizəsini nəzərdə tutan dördüncü – növbəti Konvensiya qəbul edilmişdir. İlkin layihədə "Cenevrə regionu" üzrə Konvensiya çərçivəsində yaralılar, xəstələr, qadınlar, uşaqlar və yaşlıların qorunması üçün geniş zonaların yaradılması planlaşdırılırdısa, diplomatik konfrans bu təşəbbüsü iki hissəyə bölərək daha konkret tədbirlər müəyyən etmişdir. Belə ki, konfransda zərərçəkmiş hərbi qulluqçular üçün "Qırmızı Xaç" emblemi ilə qorunan hospitalların yaradılması təsdiq edilmiş və

bununla yanaşı, xəstələr, yaşlı şəxslər, əlillər, 15 yaşınadək uşaqları olan qadınlar üçün təhlükəsiz zonaların yaradılması qərara alınmışdır.

1951-ci ildə təşkilatın Baş katibi vəzifəsinə Henri Corcu əvəzləyən Milan Bondi təyin edilmişdir. O dövrdə Koreya müharibəsinin qlobal münaqişəyə çevrilməsi təhlükəsi mövcud idi. "Cenevrə regionu" Katibliyi qəbul edilən konvensiyasının verdiyi hüquqi səlahiyyətlərdən istifadə edərək mümkün təhlükəsiz zonaların müəyyənləşdirilməsi və hazırlanması istiqamətində fəal iş aparmağa başlamışdır. Avropada müxtəlif ölkələr ilə əməkdaşlıq çərçivəsində əhalinin təhlükəsiz zonalara köçürülməsini nəzərdə tutan planlar hazırlanmışdır. 1954-cü il 21-23 iyun tarixlərində Almaniyanın Berlin şəhərində mülki müdafiə sahəsində *"**İlk Beynəlxalq Konfrans**"* keçirilmişdir.

Növbəti – ikinci belə beynəlxalq konfrans isə 1957-ci il yanvarın 10-dan 13-dək İtaliyanın Florensiya şəhərində təşkil olunmuşdur. Bu konfransda "Cenevrə Zona Assosiasiyası"-nın "Beynəlxalq Mülki Müdafiə Təşkilatına (BMMT)" çevrilməsi məsələsinə baxılmış və bu quruma dövlətlərin, cəmiyyətlərin və assosiasiyaların üzv qəbul edilməsi səlahiyyəti verilmişdir.

1958-ci ildə Beynəlxalq Assosiasiyası Beynəlxalq Mülki Müdafiə Təşkilatına (BMMT) çevrilir və ona aşağıdakı məqsədlər üzrə qeyri-hökumət təşkilatı kimi yeni status verilir:

- milli mülki müdafiə təşkilatları arasında əlaqə yaratmaq;
- əhalinin mühafizəsi məsələləri üzrə tədqiqatların aparılması və təşviq edilməsi;
- fəlakətlərin qarşısının alınması, hazırlıq və müdaxilə sahəsində təcrübə mübadiləsinin və səylərin əlaqələndirilməsinin sadələşdirilməsi.

Elə həmin ilin **12-16 may tarixlərində** Cenevrədə 33 ölkədən 130 nəfərlik nümayəndə heyətinin iştirakı ilə "***Mülki müdafiə ilə əlaqədar Üçüncü Ümumdünya Konfransı***" çağırıldı. Konfransın mövzusuna "Radioaktivliyin qarşısının alınması və qorunması" olan konfransın gündəliyinə atmosferdə mövcud olan radioaktivlik, müharibə və digər fövqəladə hallar zamanı əhalinin təxliyəsi və bu sahədə onların mühafizəsi kimi məsələlər daxil edilmişdir. Təxminən bundan 20 il sonra nüvə sınaqlarının istifadəsi qadağan edilmiş, bir sıra ölkələrdə isə nüvə silahlarının təsirindən mühafizə məqsədilə sığınacaqların sayı nəzərə çarpacaq dərəcədə artırılmışdır.

Bundan əlavə, mülki müdafiə üzrə işləyən şəxslərə beynəlxalq status verildi.

Daha sonra, **16-18 oktyabr 1961-ci ildə** Montrödə mövzusu "Dünyada bütün mülki müdafiə təşkilatları arasında əməkdaşlıq" və 27 may - 1 iyun 1963-cü ildə Cenevrədə "Fəlakət və müharibə zamanı xilasetmə işləri" mövzusunda iki vacib konfrans keçirilmişdir.

1966-cı ilin oktyabr ayının 17-də Monako Knyazlığında baş tutan "Nüvə Radiasiya Təhlükələri üzrə İkinci Beynəlxalq Mülki Müdafiə Simpoziumundan sonra 10-22 oktyabr tarixində BMT-nin katibliyində "Beynəlxalq Mülki Müdafiə Təşkilatı (BMMT)" üçün önəmli məsələ olan onun nizamnaməsinin mətni qəbul edildi. Nizamnamənin əsas məqsədi fövqəladə hallar zamanı əhalinin və onların əmlakının təhlükəsizliyinin və mühafizəsinin beynəlxalq miqyasda təmin olunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsini təmin etmək olmuşdur. Nizamnamə **1 mart 1972-ci ildə** qüvvəyə minir və həmin tarixdən hər il martın 1-i "Beynəlxalq Mülki Müdafiə Günü" kimi qeyd edilir.



Şəkil 1.3. Beynəlxalq Mülki Müdafiə Təşkilatının rəsmi emblemi

Fəaliyyəti müddətində bu təşkilat, ən çətin və mürəkkəb fövqəladə hallarda zərərçəkmişlərə yardım göstərməklə yanaşı, təbii, texnogen və digər fövqəladə hadisələrin qarşısının alınmasında BMT, yerli və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməkdədir. Təşkilatın fəaliyyəti təkcə müharibə şəraitində mülki əhalinin və mədəni irsin mühafizəsi ilə məhdudlaşmamış, həm də sülh dövründə insanları və ətraf mühiti təbii və texnogen mənşəli fəlakətlərdən qorumaq istiqamətində genişlənmişdir.

Bundan başqa, iqlim dəyişikliyi ilə əlaqədar olaraq, BMMT təkrarlanan, getdikcə daha şiddətli və dağıdıcı hala gələn fəlakətlərə məruz qalan insanların həssaslığını azaltmaq üçün informasiya texnologiyalarına əsaslanan proqnozlaşdırma mexanizmlərini işləyib hazırlamışdır.

Funksional səviyyədə BMMT-in nəzdində, Baş Assambleya, İcraiyyə Şurası və Daimi Katiblikdən ibarət üç orqan fəaliyyət göstərir. Bundan əlavə, risklərin idarə olunması çərçivəsində proaktiv qərarların qəbul edilməsi baxımından cavab tədbirlərinin bir hissəsi olaraq, müəyyən ölkələrdə filialları olan daimi monitorinq işini həyata keçirən Beynəlxalq Monitorinq və Koordinasiya Mərkəzi (BMCC) inkişaf etdirmişdir. Beynəlxalq Mülki Müdafiə Təşkilatına hazırda 60 ölkə üzv olmuş, 16 ölkə isə müşahidəçi statusundadır.

Beynəlxalq Mülki Müdafiə Təşkilatı öz fəaliyyəti çərçivəsində Azərbaycan Respublikası ilə də əməkdaşlıq edir. Bu əməkdaşlıq ilk dəfə 1993-cü ildə Azərbaycanın beynəlxalq təşkilata üzv olması ilə başladı. Həmin tarixdən sonra, Azərbaycan nümayəndəliyi təşkilatın müxtəlif tədbirlərində iştirak etməklə yanaşı, Beynəlxalq Mülki Müdafiə Təşkilatının təşəbbüsü və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə 12-13 mart 2013-cü ildə tarixində Qəbələ

şəhərində baş tutan vacibi tarixi hadisə kimi qeydə alınan "Mülki Mühafizə və Mülki Müdafiə üzrə 13-cü Beynəlxalq Konfrans"ında "Qəbələ Bəyannaməsi"nin qəbul edilməsi idi. Həmin tədbirdə BMMT-yə üzv və təşkilatla əməkdaşlıq edən 52 dövlətin fövqəladə halların idarə olunması üzrə məsul dövlət qurumlarının rəhbərləri, 10 beynəlxalq təşkilatın nümayəndə heyəti iştirak etmişdir.

Beynəlxalq Mülki Müdafiə Təşkilatı yarandığı gündən bir neçə emblem altında fəaliyyət göstərmişdir. Bunlardan sonuncusu Şəkil 1.3-də təsvir olunan emblemdir. Hazırki təsvirin tarixi 29 oktyabr 1998-ci ildən başlayır və Pekində keçirilən 11-ci Ümumdünya Mülki Müdafiə Konfransı zamanı qəbul edilib. O, 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına I Əlavə Protokolunun müddəalarına uyğun olaraq, Mülki Müdafiə üçün fərqləndirici beynəlxalq nişanı, yəni narıncı fonda mavi bərabərtərəfli üçbucağı təmsil edir.

Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları Departamenti. Baş verən fəlakətlər zamanı mülki müdafiənin daha mükəmməl modeli olan mülki mühafizə sahəsində "Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları Departamenti" adlı beynəlxalq humanitar təşkilat vardır ki, bu da öz işini fəlakətlərdən

zərərçəkmiş əhaliyə yardımların göndərilməsi, zərərçəkmişlərin üzləşdiyi zərərlərin minimuma endirilməsi və bu işlərin koordinasiya edilməsi üzrə fəaliyyət göstərir. Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları Departamenti (The European Commission's Civil Protection and Humanitarian Aid Operations department) 1992-ci ildə "Avropanın dünya üzərində ehtiyacı olan insanlarla həmrəyliyinin ifadəsi" kimi yaradılmışdır.

Departament ilk olaraq Avropa İttifaqının humanitar



Şəkil 1.4. Avropa İttifaqı Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları Departamenti

yardım ofisi kimi fəaliyyətə başlamış və hazırda 30 ildən artıqdır ki, humanitar yardım işləri ilə məşğuldur. Aİ-nin humanitar işi beynəlxalq humanitar hüquqa əsaslanan humanistlik, neytrallıq, qərəzsizlik və müstəqillik prinsiplərini rəhbər tutur. Aİ-nin humanitar fəaliyyəti həm də Lissabon Müqaviləsində təsbit edildiyi kimi həmrəylik prinsipini təcəssüm etdirir. 2001-ci ilin oktyabrında Avropa Komissiyası *Avropa İttifaqı Mülki Müdafiə Mexanizmini* yaratdı. Mexanizm fəlakətlərin qarşısının alınması, hazırlıq və cavab tədbirlərinin təkmilləşdirilməsi üçün Avropa İttifaqı ölkələri ilə 10 iştirakçı dövlət (Albaniya, Bosniya və Herseqovina, İslandiya, Moldova, Monteneqro, Şimali Makedoniya, Norveç, Serbiya, Türkiyə və Ukrayna) arasında mülki müdafiə sahəsində əməkdaşlığı gücləndirmək məqsədi daşıyır.

Fövqəladə hal Avropada və onun hüdudlarından kənarda bir ölkənin cavab imkanlarını aşdıqda, həmin ölkə, bu mexanizm vasitəsilə yardım tələb edə bilər. Komissiya yerləşdirmənin nəqliyyat və yaxud əməliyyat xərclərinin ən azı 75%-nə töhfə verməklə, dünya miqyasında fəlakətlərə cavab tədbirlərinin əlaqələndirilməsində əsas rol oynayır.

2010-cu ildə departament Avropa İttifaqı Mülki Müdafiə Mexanizmi və Avropa İttifaqının Fövqəladə Hallara Cavab üzrə Koordinasiya Mərkəzinin işi vasitəsilə Avropa daxilində və onun xaricində daha effektiv koordinasiya və fəlakətlərə cavab vermək üçün vahid komanda yaratdı.



Şəkil 1.5. Avropa İttifaqının Fövqəladə Hallara Cavab Koordinasiya Mərkəzi

Fövqəladə Hallara Cavab Koordinasiya Mərkəzi (ERCC). Bu mərkəz Avropa İttifaqının Mülki Müdafiə

Mexanizminin əsas tərkib hissəsidir. O, fəlakətə məruz qalmış ölkələrə yardım vasitələri, ekspertiza, mülki müdafiə qrupları və xüsusi avadanlıq kimi yardımın çatdırılmasını əlaqələndirir. Mərkəz təcili yardımın sürətlə yerləşdirilməsini təmin edir və bütün Aİ Üzv Dövlətləri, 10 əlavə iştirakçı dövlət, təsirə məruz qalan ölkə, mülki müdafiə və humanitar ekspertlər arasında koordinasiya mərkəzi rolunu oynayır. "ERCC" 24/7 fəaliyyət göstərir. O, milli hakimiyyət orqanlarının və ya BMT orqanının tələbi əsasında böyük fəlakətdən zərər çəkmiş Aİ daxilində və ya ondan kənarda olan istənilən ölkəyə kömək edə bilər.

Avropa İttifaqı "Avropa Qonşuluq Siyasəti Çərçivəsi (AQS)" vasitəsilə fəal qonşuluq siyasətini təşviq edir ki, bu da həmsərhəd ölkələrlə daha çox iqtisadi və siyasi inteqrasiyaya nail olmaqdır.

AQS çərçivəsində həyata keçirilən "Təbii və Texnogen Fəlakətlərin Qarşısının Alınması, Hazırlıq və Cavab (PPRD)" üzrə Şərq Tərəfdaşlığı Proqramı fövqəladə halların qarşısının alınması, hazırlıq və cavab tədbirləri üzrə əməkdaşlıq fəaliyyətlərini Şərqi Avropaya qədər genişləndirir. Azərbaycan, Belarus, Gürcüstan, Ermənistan, Moldova və Ukrayna ilə əldə olunan əməkdaşlıq təkcə bu tərəfdaş ölkələrdə və Aİ-də fəlakətlərin qarşısını almaq, hazırlamaq və onlara cavab vermək deyil, həm də ictimai və siyasi

sabitliyə töhfə vermək məqsədi daşıyır. İqlim dəyişikliyi məsələsi də bu tərəfdaşlıq çərçivəsində həyata keçirilən əməkdaşlığı əhatə edir.

1.4. Fövqəladə halların təsnifatı. Sülh və hərbi mənşəli fövqəladə hallar

Bəşər tarixi boyu inkişaf edən dövr ərzində baş verən fövqəladə hallar növünə və miqyasına müxtəlif növlərdə özünü göstərmişdir. Buna səbəb, yer təkində və atmosferdə baş verən dəyişikliklər sənaye və istehsalatın yüksəlişi olmuşdur. Bütün bunlar mümkün fövqəladə halların təsnifatlandırılmasına gətirib çıxarmışdır. Bu təsnifat özünün vacibliyini təkcə elm üzərindən deyil, həm də sağlam düşüncənin əsas komponenti kimi göstərir.

Fövqəladə halların təsnifatlandırılması onların faktiki gözlə görünən nəticəsinə uyğun müxtəlifliyidir. Bu zaman aralıqlarına *fövqəladə halların inkişaf mərhələləri* deyilir. Fövqəladə halların baş vermə inkişafı 4 mərhələdən ibarətdir:

7. Fövqəladə halın baş verməsinə qədər olan mərhələ - normal şəraitdən və ya adi hallardan fərqlənən vəziyyətlərin formalaşması və onların getdikcə toplanması ilə xarakterizə olunur. Bu mərhələ bir neçə sutka, ay, bəzən isə illərlə və ya onilliklərlə davam edə bilər.

8. Fövqəladə halın başlanğıcına təkan verən amil - fövqəladə vəziyyətin baş verməsinə səbəb olan və hadisəni işə salan ilkin təsirdir.

9. Fövqəladə hadisənin baş tutma mərhələsi - bu zaman insanlara, ətraf ərazilərə və obyektlərə mənfi təsir göstərən proseslər baş verir.

10. Zəifləmə və sönmə mərhələsi - baş vermiş hadisənin gücünün tədricən azalması ilə xarakterizə olunur. Bu mərhələ təhlükənin qarşısının alınmasından və ya təsirinin azaldılmasından başlayaraq, hadisənin nəticələrinin tam aradan qaldırılmasına qədər olan dövrü əhatə edir. Bu mərhələnin müddəti illərlə davam edə bilər.

Fövqəladə halları təsnifatlandırarkən aşağıdakı ümumi şərtləri nəzərə almaq lazımdır:

- fövqəladə halın xarakteri – baş verən fövqəladə vəziyyətin faktiki səbəbi: təbii, texnogen, ekoloji, texnogen və sosial xarakter;

- baş verən fövqəladə halın tezlik dərəcəsi - tez-tez baş verə bilən hadisələr: *zəlzələlər, nəqliyyat qəzaları;* gündəlik baş verə bilən hadisələr: *yanğınlar;* nadir hallarda baş verə bilən hadisələr: *texniki-kommunal sistemlərdə, boru kəmərlərində baş verən və digər bu kimi texnogen qəzalar, vulkanlar;* çox nadir baş verə bilən hadisələr: *epidemiyalar, geniş miqyaslı ekoloji qəzalar;*

- Nəticəsi əhatə etdiyi ərazinin sahəsinə görə - lokal, obyekt, yerli, regional, milli, qlobal-transmilli:

- **lokal hadisələr** – hadisənin təsiri iş yeri, mənzil və ya digər məhdud bir ərazi ilə məhdudlaşır;
- **bir obyekt sərhədlərində baş verən hadisələr** – belə hadisələr bir sənaye müəssisəsi, eləcə də, bina və ya digər tikili ilə məhdudlaşır;
- **yerli hadisələr** – hadisənin təsiri yalnız bir yaşayış məntəqəsini, tək bir şəhəri və ya kənd təsərrüfatı müəssisəsinin ərazisini baş verir;
- **regional səviyyədə fövqəladə hadisələr** – belə hadisələr ölkənin bir neçə rayon və şəhərlərində baş verir ki;
- **milli (dövlət səviyyəli) fövqəladə hadisələr** – hadisə ölkənin geniş ərazilərini əhatə edir, lakin dövlət sərhədlərini aşmır;
- **qlobal səviyyədə baş verən fövqəladə hadisələr** – elə hadisələrdir ki, ən azı iki dövlətin ərazisini əhatə edir.

Yuxarıda qeyd olunan ümumi şərtlər vasitəsilə müəyyən bir regionun və ya ərazinin fövqəladə hal risklərinin qiymətləndirilməsini həyata keçirmək olar. Bundan başqa, fövqəladə halların təsnifatlandırılması zamanı onun xarakteri və baş vermə tezliyinin nəzərə alınması əvvəlcədən onların proqnozlaşdırılmasına, eləcə də, onların baş verdiyi zaman düzgün idarəedilməsinə və nəticələrinin aradan qaldırılmasına töhfə verir.

Bu məqsədlə fövqəladə halları tipoloji olaraq aşağıdakı kimi ümumiləşdirə bilərik:

- **adi fövqəladə hallar:** əvvəlcədən proqnozlaşdırılması mümkündür və baş verə biləcək nəticəsi məlumdur;
- **gözlənilməz fövqəladə hallar:** təxmin edilməsi çətin olsa da, cavab reaksiyasının verilməsi və nəticələrinin aradan qaldırılmasının mümkünlüyü ilə xarakterizə olunur;
- **idarə olunmayan fövqəladə hallar**: uğurla proqnozlaşdırmaq mümkündür, lakin baş vermə xüsusiyyətinə görə cavabvermə reaksiyası çətinləşir və nəticələrinin aradan qaldırılması böyük əmək və vaxt tələb edir;
- **fövqəltəbii hallar:** bu tip fövqəladə hallar gözlənilməzdir, əvvəlcədən proqnozlaşdırılması və onlara cavab reaksiyası vermək çox çətindir və bəlkə də, mümkünsüzdür.

		Fövqəladə hala reaksiyavermə imkanı	
		İdarə edilə bilən	**İdarə edilə bilməyən**
Baş vermə ehtimalı	**Proqnozlaşdırıla bilən**	Adi fövqəladə hal	İdarə olunmayan fövqəladə hal
	Proqnozlaşdırıla bilməyən	Gözlənilməz fövqəladə hal	Fövqəltəbii hal

Cədvəl 1.1. Fövqəladə halların kompleks tipologiyası

Bununla belə, fövqəladə halların nəticəsindən və vurduğu ziyanlardan asılı olaraq aşağıdakı meyar növlərinə görə də təsnif edilir:

1. vaxt: gözlənilməz olub-olmaması və baş verdiyi zaman inkişaf sürəti;

2. sosial-ekoloji: insan tələfatı, baş verən epidemiyalar, mal-qara fondunun kütləvi şəkildə məhv olması, təbii ehtiyatların zədələnməsi;

3. sosial-iqtisadi: daxili siyasi və qeyri-sabitliyə səbəb olan iqtisadi böhranlar;

4. iqtisadi: əhəmiyyətli iqtisadi zərərlər və təhlükə altında olan maliyyə və maddi ehtiyatlar, mühüm maddi xərclərin, kompensasiyaların və vəsaitlərin cəlb edilməsinin zəruriliyi, vəziyyətlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün çoxlu sayda texnikadan istifadə zərurəti;

5. təşkilati-idarəetmə: gözlənilməz vəziyyətlər, hadisənin gedişatının proqnozunun mürəkkəbliyi və həll yollarının seçilməsi, evakuasiya və xilasetmə xidmətlərinin miqyasının artmasının gözlənilməzliyi.

Baş verə biləcək fövqəladə halların əhatə etmə dairəsinə görə təsnifatlandırılması onların düzgün şəkildə idarəedilməsində effektiv nəticə verir. Bu işdə, müxtəlif dövlətlər öz ərazilərində

müvafiq ərazi-idarəetmə orqanlarının müxtəlifliyinə görə təsnif etmişlər. Yuxarıda qeyd olunan təsnifatın ətraflı və geniş izahı aşağıdakı kimidir:

- **lokal xarakterli:** fövqəladə vəziyyət zonasının bir obyektin və ya müəssisənin, binanın daxilində, onun otaqlarında yaranmasıdır;

- **obyekt xarakterli:** fövqəladə vəziyyət zonasının bir obyektin və ya müəssisənin, əhatə etdiyi ərazisinin hüdudlarından kənara çıxmamasıdır;

- **yerli və ya bələdiyyə xarakterli:** fövqəladə vəziyyət zonasının, bir ərazi nümayəndəliyinin ərazisində, bir qəsəbə, kəndin, bir-birilə əlaqəli bir neçə küçə və yollarda, bilavasitə bələdiyyə səviyyəsində bir ərazi-idarəetmə orqanın əhatə etdiyi ərazilərdə yaranmasıdır;

- **regional (bələdiyyələrarası və ya ümumşəhər) xarakterli:** fövqəladə vəziyyət zonası 2 və daha çox bələdiyyə ərazisini və ya bütövlükdə bir şəhərin ərazisini əhatə edir;

- **milli xarakterli:** ölkə miqyasında baş verən fövqəladə hallardır və bir ölkənin sərhədlərindən kənara çıxmır. Bu növ fövqəladə halların xüsusiyyətləri ya ərazilərin dağılmasına səbəb olur, ya da pandemiya şəklində insanlar arasında yayılaraq bioloji fövqəladə vəziyyət yaradır;

- **qlobal fövqəladə hallar:** ölkənin sərhədlərini aşan, ən azı 2 ölkənin ərazisində baş verən fövqəladə. Bu tip fövqəladə hallar pandemiya, meşə yanğınlar, daşqınlar, müharibə və s. ola bilər.

Bəzən lokal xarakterli fövqəladə halların baş verməsi daha üst səviyyədə, hətta regional səviyyəli fövqəladə hallar ilə nəticələnə bilər. Buna misal olaraq, kritik infrastrukturda baş verən fövqəladə halları göstərmək olar ki, burada müvafiq resurslara ciddi ziyanın dəyməsi bütöv bir regionun və ya ölkənin ziyan çəkməsinə gətirib çıxara bilər (elektrik stansiyalarında baş verən qəzalar).

Fövqəladə hallar təbiətinə görə də, müxtəlif təsnifatlandırmaya malikdir. Bu təsnifatlandırma müxtəlif ölkələrdə müxtəlif formada qiymətləndirilmişdir. Ümumi formada fövqəladə halların təbiətinə görə iki əsas növə bölmək olar:

-sülh dövründə baş verən fövqəladə hallar;

- müharibə dövründə baş verən fövqəladə hallar.

Sülh dövrünün fövqəladə hallarını aşağıdakı kimi təsnifatlandırmaq olar.

Təbii fəlakətlər – geofiziki, meteoroloji, hidroloji və geoloji fövqəladə hallardır (Cədvəl 1.2.).

Texnogen fəlakətlər – insanların həyat fəaliyyəti nəticəsində baş verən fövqəladə hallardır. Bura aşağıdakıları aid etmək olar:

- binaların qəflətən uçması;
- strateji və iqtisadiyyat obyektlərin fəaliyyətinin pozulması nəticəsində baş verən qəzalar;

Cədvəl 1.2. Təbii fövqəladə halların təsnifatı

fövqəladə hallar	fövqəladə hallar	fövqəladə hallar	fövqəladə hallar
zəlzələ vulkan püskürmələri	11-12 ballıq fırtına 12-15 ballıq qasırğa leysan yağışlar iri dolu quraqlıq güclü qar güclü qar çovğunu güclü buzlaşma donvurma.	suyun səviyyəsinin qalxması (daşqınlar) və enməsi; su hövzələrinin daşması; yeraltı suların səviyyəsinin qalxması (subasma).	sel sürüşmə torpaq uçqunu qar uçqunu (marxallar) Yerin yuxarı qatının köçməsi

- radioaktiv maddələrin ətrafa yayılması və ərazinin radioaktiv çirklənməsi;

- AES-da baş verən qəzalar;

- kimyəvi təhlükəli obyektlərində güclü təsirli zəhərləyici maddələrin ətrafa yayılması nəticəsində baş verən qəzalar;

- bioloji və ya bakterioloji maddələrin hazırlanması, istehsalı, saxlanılması və daşınması zamanı təhlükəsizlik qaydalarına əməl olunmadıqda, həmin maddələrin ətrafa yayılması ilə nəticələnən qəzalar baş verə bilər;

- nəqliyyatda (hava, su, yeraltı və yerüstü quru nəqliyyatı) baş verən irimiqyaslı qəzalar;

- kütləvi şəkildə itkilərə səbəb olan su hövzələrinin zəhərli maddələr ilə çirklənməsi ilə baş verən qəzalar;

- neft kəmərlərində və təhlükəli maddələrin nəql olunduğu yerlərdə maddələrin ətraf ərazilərə dağılması ilə baş verən qəzalar;

- elektrik enerjisi sistemlərində baş verən hadisələr;

- müxtəlif iri təmizləyici qurğularında baş verən texniki nasazlıqlar və qəzalar;

- yanğın təhlükəsi olan obyektlərdə partlayışlar nəticəsində baş verən yanğınlar və s.

Bioloji fəlakətlər – insanlara və ya ətraf mühitə, bilavasitə ekosistemə təsir edən bioloji faktorlar, epidemiyalar, epizootiyalar, epifitotiyalar, bilavasitə pandemiyalardır:

- Epidemiya - kəskin halda baş verən yoluxucu xəstəliklərin qısa müddət ərzində insanlar arasında sürətlə və geniş şəkildə yayılmasıdır;

- Epizootiya - yoluxucu xəstəliklərin sürətlə və geniş halda heyvanlar arasında yayılmasıdır;

- Epifitotiya - bitkilər arasında yoluxucu xəstəliklərin geniş əraziyə yayılması və kütləvi yoluxma hallarının baş verməsidir.

Ekoloji fəlakətlər **-** ətraf mühitdə əhəmiyyətli dərəcədə baş verən dəyişmələr və pozulmalardır. Ekoloji fəlakətləri 4 növdə fərqləndirmək mümkündür:

1. ***Atmosferin (hava mühitində)*** - tərkibi və fiziki xassələrinin dəyişməsi ilə bağlı yaranan fövqəladə hadisələr;

2. ***Hidrosferin (su mühitinin)*** - vəziyyətində baş verən dəyişikliklər nəticəsində yaranan fövqəladə hadisələr;

3. ***Yerin (torpaq, yerin təki və onun səth qatının)*** - vəziyyətində baş verən dəyişikliklərlə bağlı meydana çıxan fövqəladə hadisələr;

4. ***Biosferin*** - vəziyyətinin dəyişməsi ilə əlaqədar fövqəladə hadisələr.

İqtisadi - sosial fövqəladə hallar - bu tip fövqəladə hallar geniş və müxtəlif spektrdə baş verir və ictimaiyyəti, iqtisadiyyatı və sosial sahəni əhatə etməklə böyük dəyişikliklərə səbəb ola bilir. Bunlara aşağıdakıları nümunə göstərmək olar:

- yanğınların qəsdən törədilməsi, artan cinayətkar fəaliyyətləri, talan və kütləvi şəkildə baş verən iğtişaşlar;
- hərbi münaqişələr, terror və buna oxşar hadisələr;
- iqtisadi böhranlar və maliyyə sisteminin çökməsi, büdcə krizləri;
- işsizlik və sosial cəhətdən qeyri-amanlıq;
- təbii ehtiyatların tükənməsi və bu səbəbdən baş verən böhranlar;
- etnik münaqişələr, siyasi təsnifatlar və sosial qarışıqlıqlar.

Müharibə dövrünün fövqəladə halları isə ölkələr arasında baş verən hərbi əməliyyatlar nəticəsində meydana gələn fövqəladə hadisələrdir. Onları aşağıdakı kimi təsnifatlandırmaq olar:

- adi (ənənəvi) silahlardan istifadə olunması nəticəsində baş verən;
- kütləvi qırğın silahlarının (nüvə, kimyəvi, bioloji və s.) tətbiqi ilə baş verən genişmiqyaslı dağıdıcı hadisələr.

Müasir dövrdə texnoloji inkişaf və proseslərin avtomatlaşdırılması nəticəsində komputerlərdən istifadə ənənəvi

hala çevrilmişdir. Eləcə də, bu sahədə müvafiq zərərvericilərdən istifadə və kiberhücumların baş verməsi qaçılmazdır. Belə hadisələrin baş verməsi müxtəlif səviyyələrdə fövqəladə hal olaraq nəticələnir ki, bu da özlüyündə həm sülh dövründə və həm də müharibə dövründə baş verə bilir. Bütün bu tip fövqəladə hadisələr *texnoloji fövqəladə hallar* adlanır. Müasir dövrdə texnoloji fövqəladə hallar aşağıdakılardır:

- ***kiberinsident*** – kibertəhlükəsizlik təhdidləri və hücumları əhatə edir;

- ***avtomatlaşdırılmış texnoloji sistemlərin qəzası*** – avtomatlaşdırılmış texnoloji sistemlərdə baş verən fövqəladə hallardır.

Qeyd edilən təsnifatlardan başqa, müxtəlif ölkələrin ədəbiyyatlarına istinadən, fövqəladə halların təsnifatı müxtəlif cür qeyd olunur. Bu müxtəlifliyin əsas səbəbi, hər ölkənin coğrafi relyef quruluşu, fövqəladə halların baş vermə müddəti və təbiətinin fərqlənməsidir.

Almaniya ədəbiyyatlarında fövqəladə halların təsnifatı mövcuddur və bu, *sosial-iqtisadi fövqəladə hallar, texniki-texnoloji-bioloji-tibbi* xarakterli fövqəladə hallar və mexaniki və istilik enerjisi nəticəsində yaranan fövqəladə hallar olaraq bölünür

Növbəti təsnifat, Rusiya ədəbiyyatlarına məxsusdur ki, bu da, texniki-texnoloji (texnogen); 2) təbii və 3) ekoloji olaraq Təsnifatın bütün üzvləri səbəb meyarının həyata keçirilməsi yolu ilə tərtib edilmişdir ki, bu da təsnifatın ardıcıl olduğunu bildirir. Bundan əlavə, təsnifatın tamamilə əhatəli olduğu qənaətinə gəlmək olar.

Çin ədəbiyyatı ətraf mühitdəki astronomik, meteoroloji, geoloji, geofiziki, hidroloji, bioloji fövqəladə hallar, yanğınlar, yol qəzaları, partlayışlar, binaların dağılması, iş yerləri, sağlamlıq problemləri ilə əlaqədar təsnifatı fərqləndirir. Fövqəladə halların bu bölgüsü ardıcıl olaraq alınmamışdır, çünki bütün üzvlər fövqəladə vəziyyətin səbəbini deyil, yalnız onun baş verdiyi yeri göstərir (iş yerlərində fövqəladə hallar, yəni mədənlərdə fövqəladə hallar).

Fövqəladə halların təsnifatı Hollandiya ədəbiyyatlarında da mövcuddur və təbii, antropogen, mədəni və humanitar fövqəladə hallar kimi bölgüləndirilir. Mədəni və humanitar fövqəladə hallar səbəb meyarından deyil, nəticə meyarından götürüldüyü üçün bu təsnifat ardıcıl olaraq alınmamışdır.

Serbiya Respublikasında fövqəladə halların bölünməsi onların baş vermə xarakteri ilə bağlıdır: təbii fəlakətlər, texniki-texnoloji qəzalar - hadisələr, müharibə nəticələri və terror

aktlarının nəticələri, epidemiyalar, epizootiyalar; yanğınlar və partlayışlar, terror hücumları və nüvə və ya radiasiya qəzaları kimi təsnifatlandırılır.

Qeyd etmək lazımdır ki, fövqəladə halların təsnifatı unikal deyildir, lakin real baş verən hadisələr müəyyən qruplaşdırma metodları ilə fövqəladə hallar təsnifatlandırılır.

I fəsil üzrə yoxlama suallar

1. Mülki müdafiənin əsas məqsədlərinə aid olmayan variant hansıdır ?

A) Fövqəladə hadisələrin qarşısını almaq məqsədilə qabaqlayıcı (profilaktik) tədbirlərin planlaşdırılması və həyata keçirilməsi

B) Fövqəladə hadisələrin yayılmasının təşviq edilməsi

C) Fövqəladə hadisələr zamanı baş verə biləcək ziyan və itkilərin miqyasını minimuma endirmək üçün zəruri tədbirlərin görülməsi

D) Fövqəladə hadisələrin və onların törətdiyi fəsadların aradan qaldırılması istiqamətində bərpaedici və xilasetmə tədbirlərinin həyata keçirilməsi

2. Hansı termin mülki müdafiənin vəzifələrinin icrası üçün nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının, eləcə də onların qüvvə və vasitələrinin məcmusunu ifadə edir?

A) Mülki müdafiə

B) Mülki müdafiə sistemi

C) Fövqəladə hal

D) Planlaşdırma

3. Fövqəladə hal nədir ?

A) İnsanların həyat fəaliyyətinin normallaşmasına yönəlmiş tədbirlər sistemi

B) Fövqəladə vəziyyətin yaranmasına səbəb ola biləcək hadisə

C) İnsanların fövqəladə hallarla bağlı maarifləndirilməsi prosesi

D) Xilasetmə qruplarının işinin təşkili

5. Hansı anlayış fövqəladə halların təsirinin minimuma endirilməsi məqsədilə görülən tədbirləri ifadə edir?

A) Müdaxilə

B) Maarifləndirmə

C) Bərpaetmə

D) Fövqəladə vəziyyət

6. Mülki müdafiənin icrasına aid olan tədbirlərdən biri deyil ?

A) Əhali və ərazilərin mühafizəsi, zərərçəkmiş şəxslərin xilas edilməsi

B) Mədəni sərvətlərin qorunması

C) Fövqəladə halların yayılmasının artırılması

D) Baş vermiş fəlakətdən sonra bərpa işlərinin görülməsi

7. Mülki müdafiənin əsas məqsədlərindən biri hansıdır?

A) Yalnız hərbi obyektlərin qorunması

B) Fövqəladə hadisələrin qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması

C) Yalnız iqtisadi obyektlərin bərpası

D) Əhalinin hərbi hazırlıq səviyyəsinin artırılması

8. "Fövqəladə hal" termini nəyi ifadə edir?

A) Yalnız müharibə dövründə yaranan vəziyyəti

B) İnsanların sağlamlığına, ətraf mühitə və maddi dəyərlərə ciddi təhlükə yarada biləcək hadisəni

C) Yalnız təbii fəlakətləri

D) Sənaye müəssisələrinin fəaliyyətindəki müvəqqəti dayanmanı

9. Mülki müdafiə sisteminin tərkibinə nələr daxildir?

A) Yalnız hərbi qurumlar

B) Yalnız fövqəladə hallar xidməti

C) Müvafiq icra hakimiyyəti orqanları, xəbərdarlıq sistemləri, rabitə və xilasetmə qüvvələri

D) Yalnız beynəlxalq təşkilatlar

10. Mülki müdafiənin beynəlxalq fərqləndirici simvolu hansıdır?

A) Yaşıl fon üzərində qırmızı xaç

B) Mavi fon üzərində ağ dairə

C) Narıncı fon üzərində mavi bərabərtərəfli üçbucaq

D) Qırmızı fon üzərində ağ ulduz

11. Soyuq Müharibə dövründə mülki müdafiə proqramlarının gücləndirilməsinin əsas səbəbi nə idi?

A) Təbii fəlakətlərin sayının artması

B) Qlobal iqtisadi böhranlar

C) Nüvə müharibəsi təhlükəsinin artması

D) Sənaye inqilabının başlaması

12. Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) əsas məqsədi nədir?

A) Yalnız müharibə zamanı mülki şəxsləri qorumaq

B) Təbii fəlakətlərin qarşısını almaq və mülki müdafiəni gücləndirmək

C) Yalnız Avropa ölkələrində fövqəladə hallara cavab vermək

D) Hərbi əməliyyatlar aparmaq

13. Texnogen fəlakətlərə aid olan hansı hal yanlışdır?

A) AES-da baş verən qəzalar

B) Radioaktiv maddələrin ətrafa yayılması

C) Vulkan püskürməsi

D) Kimyəvi təhlükəli obyektlərdə zəhərləyici maddələrin yayılması

14. Beynəlxalq Mülki Müdafiə Təşkilatının ilkin forması olan "Cenevrə Regionu Assosiasiyası" harada və nə vaxt yaradılmışdır?

A) 1931-ci ildə Parisdə

B) 1949-cu ildə Cenevrədə

C) 1957-ci ildə Florensiyada

D) 1966-cı ildə Monakoda

15. Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları Departamenti nə zaman yaradılmışdır?

A) 1992-ci ildə

B) 2001-ci ildə

C) 2010-cu ildə

D) 1972-ci ildə

16. Ekoloji fəlakətlər neçə əsas növə bölünür?

A) 2 B) 3 C) 4 D) 5

FƏSİL 2

AZƏRBAYCAN RESPUBLİKASINDA MÜLKİ MÜDAFİƏ ÜZRƏ QANUNVERİCİLİYİN TƏLƏBLƏRİ, FÖVQƏLADƏ HALLARIN İDARƏ EDİLMƏSİ VƏ HAZIRLIQ

2.1. Azərbaycan Respublikasının Mülki müdafiə sahəsində qanunvericiliyi və əsas rəhbər sənədlər. "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi".

Azərbaycan Respublikasında fövqəladə hallara hazırlıq, reaksiya və qarşısının alınması sahəsində əhalinin hazırlığının təşkili, mülki müdafiənin əsas vəzifələrindən biri olmaqla, çox böyük əhəmiyyət kəsb edir. Fövqəladə hallara qarşı əhalinin hazırlığı mülki müdafiənin müstəsna əhəmiyyətli sahələrindən biridir və bu sahədə qanunvericiliklə müəyyən edilmiş tələblər mövcuddur. Azərbaycan Respublikasının mülki müdafiə sahəsindəki fəal mövqeyi, hökumətin fərmanları, qəbul edilən qərarlarla təsdiq olunur.

Müstəqillik əldə etdikdən sonra mülki müdafiə sahəsində həyata keçirilən ən mühüm addımlardan biri 1992-ci ilin 31 iyul

tarixində Prezident tərəfindən imzalanan №93 "Azərbaycan Respublikasının Mülki Müdafiəsi haqqında Əsasnamə"dir. Bu sənədin tələblərinə əsasən, Mülki Müdafiə Qərargahına 6 ay müddətində müvafiq normativ sənədləri hazırlayıb Nazirlər Kabinetinə təqdim etmə tapşırığı verilmişdir. Bu əsasnamə ölkəmizdə mülki müdafiənin məqsəd və vəzifələrini müəyyən etməklə, həm də dövlət orqanlarının, ictimai təşkilatların, məsul şəxslərin və vətəndaşların mülki müdafiə üzrə hüquq və vəzifələrini aydın şəkildə təsbit etmişdir.

Azərbaycan Respublikasının mülki müdafiə qanunvericiliyi sahəsində növbəti addımının davamı olaraq, 1997-ci il 30 dekabrda №420 "Mülki müdafiə haqqında" qanun qəbul olunmuş və Azərbaycan Respublikası Prezidentinin 18 aprel 1998-ci il №700 imzaladığı fərmanla tətbiq edilmişdir. Bu fərmanla, müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi, fövqəladə hallar zamanı maddi və maliyyə ehtiyatlarının yaradılması və lazım olan digər tədbirlərin görülməsi tələb edilmişdir. Nazirlər Kabinetinin 25 sentyabr 1998-ci il №193 qərarı ilə, ölkə ərazisində fövqəladə hallara hazırlıq üzrə təşkilat və tədbirlər daha da dəqiqləşdirilmişdir.

Bundan başqa, 1992-ci ilin 30 aprel tarixində Nazirlər Kabineti tərəfindən №239 qərarı ilə *"Fövqəladə halların*

qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi" yaradılmışdır. Bu qərar, fövqəladə hallar əvvəlcədən qarşısının alınması və onlara reaksiya verilməsi məqsədilə ölkə daxilində güclü bir sistemin formalaşdırılmasını təmin etmişdir. Bununla yanaşı, Fövqəladə Hallar üzrə Komissiyanın yaradılması ilə bütün dövlət qüvvələri fövqəladə hallara qarşı hazırlığa gətirilib.

Fövqəladə Hallar Dövlət Sisteminin əsas məqsəd və vəzifələri aşağıdakılardır:

- təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılması, maddi və mədəni sərvətlərin qorunması, əhalinin sağlamlığının və həyatının təmin edilməsi üçün genişmiqyaslı iqtisadi və hüquqi tədbirlərin həyata keçirilməsi;
- təbii mühitin, xüsusilə təhlükəli obyektlərin vəziyyətinin daim izlənməsi, təhlükə potensialının düzgün qiymətləndirilməsi və onların qarşısının alınması üçün vaxtında tədbirlərin görülməsi;
- fövqəladə halların nəticələrini aradan qaldırmaq məqsədilə müvafiq qüvvə və vasitələrin təchiz olunması və onların sürətli və çevik şəkildə hadisə zonalarına göndərilməsi;

- xalq təsərrüfatı obyektlərinin dayanıqlığının artırılması, əhali və infrastrukturun qorunması, tibbi və ərzaq ehtiyatlarının daimi saxlanması.

Fövqəladə Hallar Dövlət Sistemi, həmçinin beynəlxalq əməkdaşlığı gücləndirməyi və digər dövlətlərlə fövqəladə halların qarşısının alınması və qarşılıqlı yardımlaşma sahəsində fəaliyyət göstərməyi qarşısına məqsəd qoymuşdur. Bu çərçivədə, xarici ölkələrlə əlaqələr qurularaq, təcrübə mübadiləsi və yardımlaşma təşkil edilə bilər.

Fövqəladə Hallar Dövlət Sistemi müxtəlif səviyyələrdə idarə olunur:

- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Fövqəladə Hallar üzrə Komissiyası;
- Şəhər və rayon icra hakimiyyətlərinin fövqəladə hallar üzrə komissiyaları;
- xalq təsərrüfatı obyektlərində yaradılan fövqəladə hallar komissiyaları.

Bu idarəetmə strukturları fövqəladə halların qarşısının alınması, onların baş verməsi halında operativ müdaxilə və bərpa işlərinin görülməsi üçün məsuliyyət daşıyırlar.

Fövqəladə Hallar Dövlət Sisteminin fəaliyyətinə gəlincə, sistem üç əsas iş rejimində fəaliyyət göstərir:

1. **Gündəlik (normal) iş rejimi** – sabit sənaye istehsalı və müvafiq radiasiya vəziyyətində, həmçinin təhlükə olmayan kimyəvi və bioloji şəraitdə fəaliyyət;

2. **Yüksək hazırlıq rejimi** – radiasiya, kimyəvi, bioloji və digər təhlükəli şəraitlərdə fövqəladə halların baş verməsi ehtimalı olduğunda fəaliyyətin gücləndirilməsi;

3. **Fövqəladə rejim** – fövqəladə hallar baş verdikdə, onların nəticələrinin aradan qaldırılması üçün tədbirlərin sürətlə həyata keçirilməsi.

Bu rejimlərdə müvafiq tədbirlər aşağıdakılardan ibarət olur:

- **Gündəlik iş rejimi**: ətraf mühitin və təhlükə obyektlərinin izlənməsi, mühafizə tədbirlərinin həyata keçirilməsi, vətəndaşların təlimatlandırılması və fövqəladə hallara hazırlığın təkmilləşdirilməsi;
- **Yüksək hazırlıq rejimi**: fövqəladə hallar üzrə komissiyaların işə cəlb olunması, fövqəladə halların baş vermə ehtimalı ilə bağlı proqnozların hazırlanması və müvafiq müdaxilə üçün hazırlıq işlərinin gücləndirilməsi;
- **Fövqəladə rejim**: fövqəladə hallarda əhalinin təxliyəsi, zərər görmüş obyektlərin bərpası, qəza-bərpa işlərinin aparılması və ətraf mühitin vəziyyətinə davamlı nəzarət.

2.2. Fövqəladə hallar komissiyası. Mülki müdafiə qərargahları və onların əsas vəzifələri

Nazirlər Kabineti yanında yaradılan "Fövqəladə Hallar üzrə Komissiyası (FHK)"-nın yaradılmasının əsas məqsədləri aşağıdakılardır:

- respublika ərazisində baş verə biləcək ağır texnogen qəzalar, təbii fəlakətlər, yoluxucu xəstəliklər, heyvanlar və bitkilər arasında yayılan kütləvi xəstəliklər zamanı idarəetmə strukturlarının qüvvə və vasitələrinin hər zaman hazır vəziyyətdə saxlanılmasını təmin etmək;
- fövqəladə hallar baş verdiyi zaman onların yayılmasının qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində dövlət idarəetmə orqanlarının fəaliyyətini əlaqələndirmək;
- xilasetmə və qəza-bərpa tədbirlərinin, əhalinin həyat təminatına dair zəruri tədbirlərin və zərərçəkmiş ərazilərdən əhalinin təxliyəsi üzrə işlərin təşkili və rəhbərliyini həyata keçirmək.

FHK sədrin rəhbərliyi altında tapşırılmış funksiyaların yerinə yetirilməsinə birbaşa məsuliyyət daşıyır və üzvlər arasında vəzifə bölgüsü aparılır. Azərbaycan Respublikasının

qanunvericiliyinə uyğun olaraq "Komissiya" sədrinə aşağıdakı səlahiyyətlər verilir:

- fövqəladə hal zonasının ərazisində ictimai asayişin qorunmasını və insanların həyat fəaliyyəti üçün vacib obyektlərin mühafizəsinin gücləndirilməsini təmin etmək;
- fövqəladə hal zonasına giriş-çıxış rejimini xüsusi qaydada tənzimləmək;
- hadisə ilə bağlı lazımi nəqliyyat vasitələrini, tibb, xilasetmə, bərpa və digər texniki resursları cəlb etmək;
- fövqəladə hal zonasında olan maddi-texniki, tibbi, ərzaq və digər ehtiyatlardan istifadə etmək;
- zəruri hallarda müəssisələrdə xüsusi iş rejimi tətbiq etmək və mövcud ehtiyatlardan istifadə etmək;
- əmək qabiliyyətli əhalini fövqəladə halların nəticələrinin aradan qaldırılması işlərinə cəlb etmək.

FHK aşağıdakı formada təşkil olunur:

- əgər hadisə istehsalat sahələrindən və obyektlərdən kənara yayılmayıbsa, obyekt səviyyəsində komissiyalar yaradılır; zərurət olduqda şəhər, rayon və sahə komissiyaları da fəaliyyətə cəlb olunur;;
- hadisə şəhər və rayon sərhədlərindən kənara yayılmadıqda, müvafiq icra hakimiyyəti orqanlarının və ya Naxçıvan Muxtar

Respublikasının Nazirlər Kabineti nəzdindəki komissiya fəaliyyət göstərir;

- regional xarakterli fövqəladə hallar zamanı isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Fövqəladə Hallar üzrə Komissiyası rəhbərliyi həyata keçirir.

Fövqəladə Hallar üzrə Komissiyalarda ştatlı struktur bölmələr (komissiyanın aparatı) yaradıla bilər. Bu bölmələrin tərkibi işin həcmindən asılı olaraq müəyyən edilir.

Mülki müdafiə sistemi üzrə vəzifələrin həyata keçirilməsi mərkəzi icra hakimiyyəti orqanlarında, habelə təsərrüfat xarakterli obyektlərdə və tədris müəssisələrində Mülki müdafiə qərargahları yaradılır.

Mülki müdafiə qərargahları aşağıdakı şəkildə təşkil edilir:

- fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili Baş idarəsi və Regional Mərkəzlərin Mülki müdafiə idarə və şöbələri;
- şəhər və rayon İcra Hakimiyyəti başçısının aparatı nəzdindəki Mülki müdafiə qərargahları;
- müvafiq şöbə və bölmələr tərəfindən yaradılan Mülki müdafiə qərargahları;
- nazirliklər və dövlət komitələri tərəfindən yaradılan Mülki müdafiə qərargahları.

Mülki müdafiə qərargahlarının əsas vəzifələri:

I. Dinc dövrdə:

1. mülki müdafiə planlarının hazırlanması və təhlili;
2. əhalinin mülki müdafiə üzrə hazırlığının təşkili;
3. tədbirlərin təşkil edilməsi və həyata keçirilməsi;
4. idarəetmənin təşkilində xəbərdarlıq və rabitə sistemlərinin yaradılması və onlarınn fasiləsiz şəkildə işləməsinin təmini.

II. Fövqəladə hadisə baş verdiyi zaman:

1. müvafiq sahə üzrə xidmət rəislərinin və eləcə də, mülki müdafiə qüvvələrinin hadisə barədə xəbərdar edilməsi;
2. xilasetmə işlərinə başlanması üçün müvafiq qüvvələrin qruplaşdırılması;
3. kimyəvi vəziyyətininn qiymətləndirilməsi;
4. baş verən hadisənin təhlili, hadisə sərhədinə yaxın rayon və obyektlərə xəbərdarlıq edilməsi;
5. hərtərəfli təchizatın təşkii;
6. hadisə barədə məxfiliyin qorunması.

Mülki müdafiə qərargahlarının əsas sənədləri aşağıdakılardan ibarətdir:

1. mülki müdafiə işinin təşkili və həyata keçirilməsi üçün əmr;

2. əvvəlcədən tərtib olunan müəyyən dövrdə keçiriləcək tədbir və təlimlər üzrə mülki müdafiə planı;
3. illik planlama sənədləri;
4. FHK-ya aid sənədlər;
5. mülki müdafiə qüvvələrinə aid sənədlər;
6. keçirilən tədbirlərin, təlimlərin və məşqlərin sənədləri;
7. görülən işlərlə əlaqədar hesabatı əks etdirən sənədlər.

2.3. Mülki müdafiə tədbirlərinin planlaşdırılması və əhalinin fövqəladə hallardan müdafiə sahəsində hazırlığı

Azərbaycan Respublikası ərazisində baş verəcək fövqəladə hadisələrə qarşı əhalinin hazırlanması mülki müdafiənin qarşısında duran əsas vəzifələrindən biridir. Bundan əlavə, mülki müdafiə sahəsində əhalinin hazırlanması, eləcə də fövqəladə hallarda davranış qaydaları müasir dövrün aktual məsələlərindəndir.

Bu məsələlər vəzifə olaraq 30 dekabr 1997-ci il tarixli №420 "Mülki Müdafiə haqqında" Azərbaycan Respublikasının qanununun, Azərbaycan Respublikası Prezidentinin 18 aprel 1998-ci il tarixli №700 "Mülki müdafiə haqqında" qanununun tətbiq edilməsi barəsində Fərmanı və Nazirlər Kabinetinin 193 saylı "Əhalinin mülki müdafiəyə hazırlanması haqqında" qərarının tələblərinə uyğun olaraq yerinə yetirilməlidir. Belə hazırlığın təşkil edilməsində əsas məqsəd əhalinin kütləvi qırğın silahlarından müdafiə, sülh dövründə fövqəladə hallar zamanı və onun nəticələrininin aradan qaldırılmasında davranış qaydalarının mənimsənilməsini və belə hadisələrə hazır olmalarını təmin etməkdən ibarətdir.

Mülki müdafiə üzrə həyata keçiriləcək tədbirlərin təşkili üçün əsas sənədlər "*Azərbaycan Respublikasının mülki müdafiə planı"* və "*Azərbaycan Respublikasının illik mülki müdafiə tədbirləri planı"-dır.* Mülki müdafiə əsas tədbirlər planı Azərbaycan Respublikasının müvafiq mərkəzi icra hakimiyyəti orqanları cəlb olunmaqla Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən hazırlanır və təsdiqi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur.



Şəkil 2.1. Mülki müdafiə qüvvələri

Azərbaycan Respublikasının mülki müdafiə planı fövqəladə halların baş verdiyi zaman mülki müdafiənin idarə

olunmasında əsas sənəd kimi çıxış edir. Bu sənəddə fövqəladə hadisələr nəticəsində yarana biləcək vəziyyətlər və mövcud imkanlar nəzərə alınaraq, əhalinin qorunmasının təşkili, baş vermiş hadisələrin nəticələrinin aradan qaldırılması məqsədilə həyata keçiriləcək xilasetmə və digər təxirəsalınmaz tədbirlərin təmin olunması, eləcə də idarəetmənin təşkili ilə bağlı əsas istiqamətlər öz əksini tapır. Bu, idarəetmə məntəqələrinin və rabitə vasitələrinin istifadəsini, xəbərdarlıq sistemlərinin tətbiq qaydalarını da əhatə edir.

Mülki müdafiə planları bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən təsərrüfat subyektlərində hazırlanır. Planlar beş illik müddət üçün qüvvədə olur və hər il mövcud şəraitə uyğun olaraq dəqiqləşdirilir.

Bununla yanaşı, ölkədə mülki müdafiə sahəsində tam hazırlığın təmin olunması məqsədilə hər il Azərbaycan Respublikasının illik mülki müdafiə tədbirləri planı hazırlanır və Fövqəladə Hallar Nazirliyi tərəfindən təsdiq edilir. Bu planda müvafiq icra hakimiyyəti orqanları, təsərrüfat subyektləri və təhsil müəssisələrinin rəhbərləri tərəfindən cari ildə həyata keçiriləcək təlimlər, məşqlər, yoxlamalar və digər tədbirlərin keçirilmə tarixləri müəyyən olunur. Təsdiq edilmiş plan əsasında mərkəzi və

yerli icra hakimiyyəti orqanları, həmçinin hüquqi şəxslər öz müəssisə və təşkilatları üzrə ilkin mülki müdafiə planlarını hazırlayır, Fövqəladə Hallar Nazirliyi və ya onun yerli qurumları



ilə razılaşdıraraq icraya yönəldirlər.

Bu cür hazırlıq tədbirləri əhalinin müdafiəsinin səmərəli

Şəkil 2.2. Rayonun mülki müdafiə qüvvələrinin sıra baxışı

təşkili, mümkün insan və maddi itkilərin azaldılması, fövqəladə halların iqtisadiyyat obyektlərinin fasiləsiz fəaliyyəti üzərində təsirinin minimuma endirilməsi, hadisə yerlərində operativ və

koordinasiyalı xilasetmə və təxirəsalınmaz işlərin yerinə yetirilməsi üçün əlverişli şərait yaradır. Bu sahədə məsul şəxslər — idarə və təşkilat rəhbərləri mülki müdafiənin təşkilati prinsiplərini və həyata keçirilməsi qaydalarını dərindən mənimsəməli, planlaşdırma və idarəetmə üzrə biliklərə malik olmalı, qəza-xilasetmə və təxirəsalınmaz tədbirlər üzrə doğru və çevik qərarlar qəbul etməlidirlər.

Mülki müdafiə dəstələrinin şəxsi heyətinin hazırlığı müəssisə rəhbərləri, qərargah rəisləri və dəstə komandirlərinin üzərinə düşür. Qərargah tərəfindən müəssisə rəhbərlərinin göstərişləri əsasında təlim iştirakçılarının kateqoriyası, qrupların tərkibi, dərs vaxtları, rəhbərləri və maddi-texniki təminatı müəyyən edilir.

Şəxsi heyətin və əhalinin hazırlıq səviyyəsi əsasən tədris və təlimlərin dəqiq, planlı və məqsədyönlü təşkilindən asılıdır. Hazırlıq prosesləri hər tədris ili üzrə qış və yay dövrlərini əhatə edəcək şəkildə planlaşdırılır. Planlaşdırma zamanı müəssisələrin fəaliyyət sahələri və istehsalat xüsusiyyətləri, habelə dəstələrin şəxsi heyətinin iş şəraiti nəzərə alınır.

Fövqəladə Hallar Nazirliyinin Regional Mərkəzləri və şəhər/rayon mülki müdafiə qərargahlarının göstərişləri, həmçinin təsdiqlənmiş hazırlıq planları əsasında müəssisələrdə rəhbərliyin

tapşırıqları, təqvim planı və dərs cədvəlləri tərtib olunur. Komandir və rəislər, şəxsi heyət üçün nəzərdə tutulmuş bu təlimlər nəticəsində hazırlıq yekunlaşdırılır və növbəti tədris ili üzrə qarşıya qoyulacaq vəzifələr müəyyən edilir.

2.4. Azərbaycan Respublikasında fövqəladə hallardan müdafiə sahəsində əhalinin hazırlanması

Əhalinin fövqəladə hallara hazırlanması aşağıdakı əsas prinsiplərə əsaslanır:

- Fövqəladə hallardan qorunma qaydaları 8 yaşdan yuxarı bütün şəxslərə öyrədilməlidir. Bu zaman 8-16 yaş arası şəxslərə özünü mühafizəetmə üsulları, 16 yaşdan yuxarı şəxslərə isə həm qorunma tədbirləri, həm də qəza və fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə fəaliyyət qaydaları aşılanmalıdır;
- Mülki müdafiə sahəsində əhalinin maarifləndirilməsi məcburidir və bu, hər bir vətəndaşın vəzifəsi hesab olunur. Bütün dövlət və qeyri-hökumət təşkilatlarının, eləcə də müəssisələrin rəhbərləri öz tabeliklərində olan şəxslərin fövqəladə hallara hazırlığını təmin etmək məsuliyyətini daşıyırlar;
- Mühafizə tədbirləri əhalinin müxtəlif kateqoriyalarına, yerli şəraitə, təsərrüfat fəaliyyətinin xüsusiyyətlərinə və digər amillərə uyğun şəkildə həyata keçirilməlidir.

Fövqəladə hallardan müdafiə sahəsində maarifləndirmə tədbirləri ölkə üzrə bütün dövlət qurumları, müəssisə və təşkilatlar tərəfindən yerinə yetirilir.

Müəssisələrdə mülki müdafiə tədris qrupları vasitəsilə məşğələlər, təlim və praktiki məşqlər vasitəsilə öyrədilir. Məşğələlərin mövzuları, vaxtı və keçirilmə qaydası yerli şərait, istehsalatın spesifikası və iştirakçıların hazırlıq səviyyəsinə uyğun olaraq müəyyən edilir.

Dövlət və qeyri-dövlət təhsil müəssisələrində isə təhsil alanlar və dinləyicilər üçün mülki müdafiəyə dair proqram, mövzu və dərs saatları müvafiq təhsil müəssisəsi və ya qurum tərəfindən hazırlanır və müvafiq icra hakimiyyəti ilə (Fövqəladə Hallar Nazirliyi) razılaşdırılır.

Müəssisələrdə keçirilən əməli məşğələlər və mülki müdafiə təlimlərinin əsas formaları aşağıdakılardır:

- **normativlərin yerinə yetirilməsinə dair məşğələlər** – ayda bir dəfə keçirilir;
- **rəhbərlərin mülki müdafiə məşqləri** – ildə bir dəfə təşkil olunur;
- **Kompleks şəkildə təşkil olunan mülki müdafiə təlimləri** – üç ildən bir, 2-3 gün müddətində aşağıdakı obyektlərdə keçirilir:

1. Yanğın və partlayış təhlükəli, həmçinin kimyəvi təhlükə daşıyan müəssisələr;
2. 300 nəfərdən çox əməkdaşı olan dərəcəsiz müəssisələr;
3. 200-dən çox çarpayısı olan xəstəxanalar.

Təlimlərə obyektlərin rəhbərliyi, komandir-rəis heyəti, mülki müdafiə üzrə hərbiləşdirilməmiş dəstələr və ətrafda yaşayan əhali cəlb olunur.

- **Digər müəssisələr və ali təhsil müəssisələrində** –üç ildən bir 8-10 məşqlər keçirilir;
- **Mülki müdafiə üzrə hərbiləşdirilməmiş dəstələrlə məşğələlər** – yüksək hazırlığa malik dəstələrlə ildə bir dəfə, digərləri ilə üç ildən bir 8 saatlıq məşğələ və yaxud kompleks təlim formasında keçirilir;
- **Təhsil müəssisələrində "Mülki Müdafiə Günü"** – illik tədris planına əsasən hər il təşkil olunur;
- **Xəbərdarlıq toplanışı üzrə təlimlər** – mülki müdafiə üzrə hərbiləşdirilməmiş dəstələrlə ildə iki dəfə təşkil edilir.

2.5. Fövqəladə hallar zamanı və mülki müdafiə sahəsində Fövqəladə Hallar Nazirliyinin vəzifələri

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi – mülki müdafiə, habelə əhalinin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması sahəsində idarəetmə, əlaqələndirmə və nəzarət funksiyalarını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirlik, fövqəladə halların baş verməsi təhlükəsi yarandıqda və ya bu hallar baş verdikdə, operativ reaksiya verməklə yanaşı, belə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin təşkili və icrasını təmin edir. Eyni zamanda, strateji əhəmiyyətli obyektlərin və infrastrukturun mühafizəsi, humanitar yardımın təşkili və koordinasiyası da Nazirliyin əsas fəaliyyət istiqamətləri sırasına daxildir.

Fövqəladə Hallar Nazirliyi fəaliyyətə başladığı gündən etibarən əhalinin və ərazilərin fövqəladə hallardan xəbərdar edilməsi, bu halların qarşısının alınması məqsədilə proqnozlaşdırma və qabaqlayıcı tədbirlərin həyata keçirilməsini təmin etmiş, mülki müdafiə, yanğın təhlükəsizliyi və su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması sahəsində təlimlərin təşkilini həyata keçirmişdir. Nazirlik bu

istiqamətlər üzrə illik fəaliyyət planlarına uyğun tədbirləri icra etmiş və müvafiq nəzarət mexanizmlərini tətbiq etmişdir.

Mülki müdafiə sahəsində Nazirliyin əsas funksiyalarından biri əhalinin fövqəladə hallara hazırlanmasının təmin olunmasıdır. Bu fəaliyyət yerli qanunvericiliyin tələblərinə əsaslanaraq müxtəlif nazirlik, komitə və təşkilatlarla qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilir. Nazirlik, eyni zamanda, ölkə ərazisində mülki müdafiə baxımından ərazi və obyektlərin kateqoriyalara ayrılması, onların risk səviyyəsinin müəyyən olunması işini təşkil etmişdir.

Fövqəladə halların baş verdiyi vəziyyətlərdə, xüsusilə 44 günlük Vətən Müharibəsi zamanı Nazirlik əhalinin təxliyəsi, xilasetmə tədbirlərinin təşkili, tibbi yardımın göstərilməsi və ictimai asayişin qorunması kimi vacib prosesləri uğurla təşkil etmişdir. Bu dövrdə həm mülki müdafiənin texniki idarəetmə sistemi, həm də müharibə şəraitində əhalinin təhlükələr barədə vaxtında məlumatlandırılması sistemləri qurulmuş və fasiləsiz fəaliyyət göstərmişdir.

Əhalinin fövqəladə hallardan müdafiəsinin təmin olunması məqsədilə sığınacaqların, digər mülki müdafiə obyektlərinin və ikili təyinatlı tikililərin yaradılması, onların daim hazırlıq vəziyyətində saxlanılması, eləcə də radiasiya, kimyəvi və bioloji

təhlükələrə qarşı müvafiq nəzarət və metodiki rəhbərliyin təmin olunması Fövqəladə Hallar Nazirliyinin əsas prioritet istiqamətləri sırasındadır.

Qeyd olunan sahələr üzrə Nazirlik müxtəlif təhsil müəssisələri, uşaq bağçaları, təsərrüfat obyektləri və digər qurumlarla sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Eyni zamanda, mülki müdafiə dəstələrinin yaradılması və onların fəaliyyətinin təşkili, kollektiv mühafizə qurğularının vəziyyətinə nəzarət və fərdi mühafizə vasitələrinin mövcudluğunun təmin olunması Nazirliyin daimi nəzarətindədir.

Fövqəladə Hallar Nazirliyinin Regional Mərkəzləri aşağıdakı əraziləri əhatə edir:

1. **Bakı Regional Mərkəzi** – *Bakı şəhəri üzrə 12 rayonu (Binəqədi, Yasamal, Nəsimi, Səbail, Xətai, Qaradağ, Nərimanov, Nizami, Suraxanı, Sabunçu, Xəzər, Pirallahı) əhatə edən fövqəladə hallar və mülki müdafiə şöbələri vasitəsilə fəaliyyət göstərir.*

2. **Sumqayıt Regional Mərkəzi** – *Sumqayıt şəhərini, Xızı və Abşeron rayonlarını əhatə edir Sumqayıt şəhərində yerləşir.*

3. **Şimal-qərb Regional Mərkəzi** – *10 rayonu (Balakən, Zaqatala, Şəki şəhəri, Qəbələ, Ağsu, İsmayıllı, Balakən, Oğuz,*

Qax, Şamaxı və Qobustan) əhatə edir və Qəbələ şəhərində yerləşir.

4. Şimal Regional Mərkəzi – *5 rayonu (Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən) əhatə edir Xaçmaz rayonunda yerləşir.*


5. Gəncə Regional Mərkəzi – *9 rayonu (Gəncə, Şəmkir, Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Daşkəsən, Göygöl, Samux) əhatə edir və Gəncə şəhərində yerləşir.*

6. Aran Regional Mərkəzi – *10 rayonu (Yevlax, Mingəçevir, Naftalan, Yevlax, Goranboy, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Ağdaş) əhatə edir və Yevlaxda yerləşir.*

7. Muğan Regional Mərkəzi – *8 rayonu (Salyan, Şirvan, Neftçala, Hacıqabul, Sabirabad, Saatlı, Biləsuvar, İmişli rayonlarını və Şirvan şəhəri) əhatə edir və Salyan şəhərində yerləşir.*

8. Qarabağ Regional Mərkəzi – *15 rayonu (Ağdam, Şuşa, Xocalı, Xocavənd, Bərdə, Ağcabədi, Füzuli, Beyləqan, Qubadlı, Laçın, Zəngilan, Cəbrayıl, Kəlbəcər, Tərtər və Xankəndi şəhərini) əhatə edir və Ağdam rayonunda yerləşir.*

9. Cənub Regional Mərkəzi – *7 rayonu (Lənkəran şəhəri, Lənkəran, Masallı, Astara, Lerik, Yardımlı və Cəlilabad) əhatə edir və Lənkəran şəhərində fəaliyyət göstərir.*



Şəkil 2.3. Fövqəladə Hallar Nazirliyinin Regional Mərkəzləri

II fəsil üzrə yoxlama suallar

1. Azərbaycan Respublikasında fövqəladə hallara hazırlıq, reaksiya və qarşısının alınması sahəsində əsas vəzifələrdən biri nədir?

A) Əhalinin sosial təminatını yaxşılaşdırmaq

B) Mülki müdafiənin təşkili

C) Xarici ticarət əlaqələrinin inkişafı

D) Bütün vətəndaşların hərbi xidmətə cəlb edilməsi

2. Azərbaycan Respublikasında mülki müdafiə sahəsində 1992-ci ildə imzalanan əsasnamənin məqsədi nədir?

A) Dövlət orqanlarının, ictimai təşkilatların və vətəndaşların mülki müdafiə üzrə hüquq və vəzifələrini müəyyən etmək

B) Hökumət tərəfindən yeni səhiyyə sisteminin yaradılması

C) Sənaye istehsalının inkişafı

D) Xarici ticarət əlaqələrinin tənzimlənməsi

3. Fövqəladə Hallar Dövlət Sisteminin əsas vəzifələrindən biri nədir?

A) Xalq təsərrüfatı obyektlərinin dayanıqlığının artırılması və müvafiq əməkdaşlığın gücləndirilməsi

B) Təbii mühitin qorunması və insan hüquqlarının təmin edilməsi

C) Təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılması

D) Beynəlxalq ticarət müqavilələrinin artırılması

4. Aşağıdakılardan hansı FHK-nın məqsədlərinə aiddir ?

A) Baş verə biləcək fövqəladə halların genişlənməsinin qarşısının alınması

B) Cəmiyyətin iqtisadi inkişafını təmin etmək

C) Təhsil sistemini islahat etmək

D) Dövlətin sosial siyasətini idarə etmək

5. Fövqəladə Hallar üzrə Komissiyanın Sədrinə hansı hüquqlar verilmişdir?

A) Cəmiyyətin inkişafı üzrə qanunlar qəbul etmək

B) Fövqəladə hallar zonasına xüsusi rejim qoymaq

C) Dövlətin maliyyə büdcəsini müəyyən etmək

D) Məhkəmələrə qərarlar vermək

6. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasına hansı komissiyalar rəhbərlik edir?

A) Qlobal inkişaf komissiyası

B) İstehsalat binalarından kənara yayılmayan fövqəladə hallarda obyekt komissiyaları

C) Dövlətin iqtisadiyyatına dair komissiya

D) Təhsil və elm komissiyası

7. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin əsas funksiyaları arasında aşağıdakılardan hansıları mövcuddur?

A) Əhalinin sağlamlığını qorumaq

B) Mülki müdafiə və əhalinin təbii və texnogen fövqəladə hallardan qorunmasını təmin etmək

C) Əhalinin təkbaşına qərar verməsini təmin etmək

D) Vətəndaşların hüquq və azadlıqlarının qorunması

8. Fövqəladə Hallar Nazirliyinin qarşısında duran əsas vəzifələrdən biri hansıdır?

A) Əhalinin mülki müdafiəyə hazırlığını təmin etmək

B) Sadəcə yanğın təhlükəsizliyi təmin etmək

C) Yalnız iqtisadiyyatın inkişafına nəzarət etmək

D) Mülki müdafiə üzrə qanunları hazırlamaq

9. Fövqəladə Hallar Nazirliyinin regional mərkəzlərindən biri hansı əraziləri əhatə edir?

A) Bakı Regional Mərkəzi 12 rayonu əhatə edir

B) Gəncə Regional Mərkəzi 5 rayonu əhatə edir

C) Şimal-qərb Regional Mərkəzi yalnız Qəbələ şəhərini əhatə edir

D) Muğan Regional Mərkəzi yalnız 3 rayonu əhatə edir

10. Fövqəladə Hallar Nazirliyinin nəzarətində olan obyektlərdən hansı aşağıdakılardan biridir?

A) Yalnız radiasiya və kimyəvi obyektlər

B) Sadəcə əhali üçün sığınacaqlar

C) Sığınacaqlar, mülki müdafiə obyektləri və ikili təyinatlı obyektlər

D) Yalnız dövlət idarəetmə qurumları


FƏSİL 3

KÜTLƏVİ QIRĞIN SİLAHLARININ NÖVLƏRİ VƏ ONLARIN ZƏDƏLƏYİCİ AMİLLƏRİ. ADİ QIRĞIN VASİTƏLƏRİ

3.1. Hərbi mənşəli fövqəladə hallar. Nüvə silahı və onun xüsusiyyəti. Nüvə zədələnmə ocağı və onun zədələyici amilləri

Müasir silahların istehsalı və durmadan inkişafı, eləcə də "Atom dövrü"nün gəlişi ilə əhali və ərazilərə dağıdıcı faktorların müxtəlifliyi çoxaldı. Bu da öz növbəsində mülki müdafiə siyasəti üçün eyni səviyyədə yeniliklərin meydan gəlməsi və köklü dəyişikliklərin baş verməsi demək idi.

Kütləvi qırğın silahları və ya başqa adla desək, yüksək dağıdıcı qabiliyyətə malik silahlar kütləvi insan qırğınınamalik silahlar kütləvi şəkildə insan qırğınına və ətraf ərazidə güclü dağıntılara səbəb silahlardır. Bunlara nüvə (atom), kimyəvi və bioloji silahları misal gətirmək olar.



Şəkil 3.1. 1945-ci ildə Atom bombasının tətbiqindən sonra Hiroşima və Naqasakidə şəhərinin görüntüsü

Artıq XXI əsrdə hərbi texnologiyanın inkişaf səviyyəsi ən yüksək həddə gəlib çatmışdır. Yer üzündə inkişaf etmiş ölkələr öz hərbi potensialını saxlamaq və inkişaf etdirmək üçün kütləvi qırğın silahları ilə təminata mühüm yer ayırırlar. Bununla paralel olaraq, sənayenin inkişafı, texnologiyanın müasir dirçəlişi və texnoloji transferlər nəticəsində kütləvi qırğın silahlarının (nüvə, kimyəvi, bioloji silahlar) təkmilləşdirilməsi istiqamətində müasir tələblərə cavab verən irəliləyiş duyulmaqdadır. Bunun da nəticəsi böyük bir təhlükə kimi meydana çıxır.

Kütləvi qırğın silahlarının adı çəkiləndə ilk ağıla gələn nüvə silahıdır. Nüvə silahının tətbiqi nəticəsində nüvə partlayışlarının güclü dağıdıcılıq xüsusiyyətlərini nəzərə alaraq onu döyüş əməliyyatlarında strateji və taktiki məsələlərin həlli üçün tətbiq edirlər. Nüvə silahlarının mühüm xüsusiyyəti qısa bir zamanda geniş ərazilərdə, istənilən hava şəraitində, habelə günün istənilən vaxtında istifadə etmək mümkündür.

İlk dəfə nüvə silahı ABŞ dövləti tərəfindən 1945-ci ilin 6 və 9 avqust tarixlərində müvafiq olaraq Yaponiyanın Hiroşima və Naqasaki şəhərlərinə təyyarədən atom bombası atılmaqla tətbiq edilmişdir. Nəticədə 313000 nəfərdən artıq dinc sakin həlak olmuş, 238000 nəfərdən artıq xəsarət almışdır.

Nüvə silahlarının dağıdıcı gücü, nüvə çevrilmələri zamanı ayrılan nüvədaxili enerjiyə əsaslanır. Onların tətbiqi zamanı partlayışlar əsasən iki üsulla həyata keçirilir:

– **Bölünmə reaksiyası** – ağır kimyəvi elementlərin (uran-235 və plutonium-239) atom nüvələri daha yüngül nüvələrə parçalanır və nəticədə böyük miqdarda enerji ayrılır.

– ***sintez reaksiyası*** - yüngül kimyəvi elementlərin (məsələn, hidrogen izotopları) birləşməsi nəticəsində daha ağır atomlar yaranır və enerji ayrılır.

Nüvə silahları əsasən ağır kimyəvi elementlərin zəncirvari bölünmə reaksiyasına əsaslanır. Bu maddələr yüksək dərəcədə



Şəkil 3.2. Nüvə silahı

radioaktiv olduqları üçün sərbəst halda belə parçalanaraq ətrafa hissəciklər buraxırlar.


Nüvə sursatlarının partlayış gücü **trotil ekvivalentində** ölçülür. **Trotil ekvivalenti** – nüvə partlayışının yaratdığı enerjiyə

bərabər olan adi partlayıcı maddə (trotil) miqdarı ilə ifadə olunur və ton, kiloton, meqaton vahidləri ilə ölçülür.

Hazırda rəsmi şəkildə nüvə silahına malik ölkələr ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çindir. Raket-nüvə silahlarının meydana çıxması hərb elminin inkişafında yeni mərhələ yaradaraq döyüş əməliyyatlarının aparılması prinsiplərində ciddi dəyişikliklərə səbəb olmuşdur.

Nüvə partlayışı nəticəsində beş əsas zədələyici amil – zərbə dalğası, işıq şüalaması, nüfuzedici radiasiya, yerin radioaktiv çirklənməsi və elektromaqnit impulsu meydana çıxır.

Nüvə partlayışı zamanı ayrılan enerjinin bölgüsü təxminən



Şəkil 3.3. Zərbə dalğası effekti

aşağıdakı kimidir:

- 50% — zərbə dalğasına;
- 35% — işıq şüalanmasına;
- 10% — radioaktiv çirklənməyə;
- 4% — nüfuzedici radiasiyaya;
- 1% — elektromaqnit impulsuna sərf olunur.

Zərbə dalğası

Nüvə partlayışının ilk anlarında açıq havada parlaq, kürə formasında bir işıq sahəsi yaranır. Bu sahə partlayış nəticəsində əmələ gələn çox yüksək temperatur və təzyiqin təsiri ilə formalaşır. İşıq saçan bu kürənin daxilində temperatur 10 milyon dərəcəyə, təzyiq isə milyardlarla atmosfer səviyyəsinə çata bilər. Bu cür ekstremal şərait nəticəsində partlayış maddələri kürənin sərhədindən sürətlə yayılaraq havada güclü bir zərbə dalğası yaradır.

Zərbə dalğası — səs sürətindən qat-qat yüksək sürətlə partlayış mərkəzindən yayılaraq ətrafı əhatə edən sıxılmış hava qatıdır. Onun dağıdıcı gücü dalğanın ön hissəsindəki artıq təzyiq, dalğa sürətinin yaratdığı təzyiq və bu təzyiqin təsir müddəti ilə müəyyən olunur. Bu parametrlər partlayışın gücü (q) və partlayış mərkəzindən məsafə (R) kimi göstəricilərdən asılı olaraq hesablanır:

- *yer üzərində partlayış zamanı:*

$$\Delta P_t = 105\frac{\sqrt[3]{q}}{R} + 410\frac{\sqrt[3]{q^2}}{R^2} + 1370\frac{q}{R^3}, \qquad kPa$$

$$\Delta P = 2.5\frac{\Delta P_f^2}{\Delta P_f + 7P_A}, \qquad kPa$$

$$\tau = 0.001 \times \sqrt[6]{q} \times \sqrt{R},\ san.$$

- *hava məkanında partlayış zamanı:*

$$\Delta P_t = 84\frac{\sqrt[3]{q}}{R} + 270\frac{\sqrt[3]{q^2}}{R^2} + 700\frac{q}{R^3}, \qquad kPa$$

$$\Delta P = 2.5\frac{\Delta P_f^2}{\Delta P_f + 7P_A}, \qquad kPa$$

$$\tau = 1.5 \times 10^{-3}\sqrt[6]{q} \times \sqrt{R},\ san.$$

- *sualtı partlayış zamanı:*

$$\Delta P_t = 39100\frac{\sqrt[3]{q}}{R} + 5800\frac{\sqrt[3]{q^2}}{R^2} + 700\frac{q}{R^3},\ kPa.$$

Burada, q – tətbiq olunan silahın gücü (kiloton, Meqaton), R – nüvə partlayışı mərkəzindən olan məsafədir (metr). (Cədvəl 3.1.). Təhlükəsizliyi təmin olmayan insanlar üçün zərbə dalğasının təsiri ilə zərər səviyyələri aşağıdakı kimi müəyyən olunur (Cədvəl 3.1.):

20-40 kPa	yüngül dərəcədə xəsarətlər
40-60 kPa	orta dərəcədə xəsarətlər
60-100 kPa	ağır dərəcədə xəsarətlər
>100 kPa	çox ağır dərəcədə xəsarətlər

Cədvəl 3.1. Zərbə dalğasının müvafiq izafi təzyiqində təsiri zədələnmənin növləri

İşıq şüalanması Nüvə partlayışı zamanı yaranan od kürəsi çox böyük miqdarda işıq və istilik şüaları — yəni görünən işıq, ultrabənövşəyi və infraqırmızı radiasiya yayır. Bu şüalanma,



Şəkil 3.4. İşıq şüalanması effekti

partlayış gücündən asılı olaraq, 10-20 saniyə ərzində davam edir.

Yaranan yanıqlar dərəcəsinə görə aşağıdakı şəkildə təsnif edilir:

– ***Yüngül (I dərəcə) yanıqlar zamanı*** dərinin qızarması baş verir;

– ***Orta (II dərəcə) yanıqlar zamanı*** dəridə suluqlar əmələ gəlir;

– ***Ağır (III dərəcə) yanıqlar zamanı*** dərinin ölməsi baş verir.

Nüfuzedici radiasiya

Partlayışdan 10-15 saniyə sonra qamma şüaları və neytronlardan ibarət olan, gözlə görünməyən radiasiya ətrafa yayılmağa başlayır. Bu radiasiya canlı toxumaları təsirləndirərək molekulları ionlaşdırır və hüceyrə səviyyəsində dəyişikliklərə səbəb olur. Nəticədə, insan orqanizmi şüa xəstəliyinə tutulur. Bu xəstəlik dərhal özünü göstərməsə də, müəyyən müddət sonra simptomlar ortaya çıxır və immun sistemin zəifləməsinə gətirib çıxarır.

Radiasiyanın təsiri udulan doza ilə qiymətləndirilir. Ölçü vahidləri:

- **Qrey (Gy)**: 1 Gy = 100 rad
- **Rentgen (R)**: 1 R ≈ 0.95 rad

Qamma şüalanması nəticəsində 0°C-də və 760 mm civə təzyiqində 1 sm^3 quru havada təxminən 2 milyard ion cütü yaranır.

Nüvə partlayışı nəticəsində yaranan nüfuzedici radiasiya zamanı əhali şüa xəstəliyinə tutulur ki, bu da udulma dozasının miqdarından asılı olaraq aşağıdakı kateqoriya üzrə təsnifləndirilir (Cədvəl 3.2.):

I dərəcəli - yüngül	D = 1-2 Qr (100-200 rad)
II dərəcəli - orta	D = 2-4 Qr (200-400)
III dərəcəli - ağır	D = 4-6 Qr (400-600 rad)
IV dərəcəli - çox ağır	D > 6 Qr (600 rad)

Cədvəl 3.2. Zərbə dalğasının müvafiq izafi təzyiqində təsiri zədələnmənin növləri

Nüfuzedici radiasiyanın təsiri müxtəlif qalınlıq və sıxlığa malik materiallardan keçərkən təsiri zəifləyə bilir. Belə ki, 2.7 sm-lik polad, 10 sm-lik beton, 14 sm-lik torpaq, 23 sm-lik su bə 30 sm-lik ağac qalınlığı nüfuzedici radiasiyanı 2 dəfəyədək azalda

bilir. Bunu da nəzərə almaq lazımdır ki, neyron seli tərkibində hidrogen olan maddələrin köməyi ilə daha çox zəifləyir (su, parafin, beton).

Radioaktiv çirklənmə (zəhərlənmə)

Yerüstü nüvə partlayışından sonra yaranan od kürəsinin daxilində radioaktiv hissəciklər əmələ gəlir. Bu hissəciklər tüstü və buxarla birlikdə yuxarı qalxaraq bulud formasını alır. Bulud havanın hərəkəti ilə daha yüksək qatlara çıxaraq ətrafdakı tozları da özünə cəlb edir. Böyük ölçülü radioaktiv hissəciklər tezliklə yerə çökür, kiçiklər isə küləklə uzaq ərazilərə yayılır.

Radioaktiv zəhərlənmənin səviyyəsi aşağıdakı amillərdən asılıdır:

- Partlayışın tipi və gücü,
- Zaman (keçən müddət),
- Mərkəzə olan məsafə,
- Havanın vəziyyəti və ərazi relyefi.

Zəhərlənmiş sahələr çox vaxt **ellips formasında** olur. Radiasiyanın təsiri aşağıdakı kimi zonalara ayrılır:

- **Çox təhlükəli**,
- **Təhlükəli**,
- **Güclü**,
- **Zəif (mülayim)**.

Radioaktiv çirklənmənin əsas fərqi onun geniş ərazini əhatə etməsi, uzun müddət davam etməsi və radioaktiv maddələrin parçalanmasının zamanla davam etməsidir. Bu səbəbdən radiasiyanın səviyyəsi zaman keçdikcə azalsa da, müəyyən müddət ərzində təhlükə qalır.

Bu maddələr rəngsiz və qoxusuz olduğu üçün, onların aşkarlanması yalnız **dozimetrik cihazlar** vasitəsilə mümkündür. Radiasiya səviyyəsi Rentgen/saat və ya Zivert/saniyə ilə ölçülür.
Əhalinin qorunması üçün:

- radiasiyadan qoruyucu sığınacaqlardan istifadə edilməli;
- fərdi qoruyucu vasitələr — əleyhqazlar, respiratorlar, toz maskaları, pambıq-tənzif maskalar tətbiq olunmalı;
- hətta adi paltar belə ilkin qoruyucu rol oynaya bilər;

Elektromaqnit impulsu

Nüvə partlayışı nəticəsində böyük miqdarda qamma-kvantlar və neytronlar ətrafa yayılır. Bu parçacıq və şüalanmalar ətraf mühitdəki atomlarla qarşılıqlı əlaqəyə girərək elektromaqnit sahələri meydana gətirir. Bu sahələr, elektrik xətlərində, hava və yeraltı rabitə sistemlərində, kabel xətlərində, siqnal qurğularında, radiostansiyaların antenalarında və digər yerlərdə qısa müddətli, lakin çox güclü cərəyan və gərginlik yaradır. Bu fenomen elektromaqnit impulsu adlanır. Elektromaqnit impulsları

radioelektron cihazları sıradan çıxara, elektrik qurğularının işini poza bilər. Həmçinin, bu impulslar yarımkeçirici cihazları, qazboşalma və vakuum cihazlarını, kondensatorları sıradan çıxararaq, bu cür cihazlarla işləyən insanları yüksək gərginlikli elektrik şokları ilə zədələyə bilər.

Nüvə zədələnmə ocağı (NZO)

Nüvə zədələnmə ocağı (NZO) nüvə partlayışının zərərli təsirləri nəticəsində böyük insan, heyvan və bitki itkiləri, həmçinin binaların və qurğuların dağıntıları, yanğınlar və ərazinin radioaktiv maddələrlə çirklənməsi baş verən bir bölgədir. Bu cür ərazilərdə həm dağıntılar, həm də yanğınlar eyni anda meydana gələ bilər. Zərbə dalğasının önündə təzyiq (ΔPf) 10 kPa-dan yüksək olan sahələr nüvə dağıntı ocağı kimi qəbul edilir. Bu cür zonalar 4 əsas dağıntı ərazisinə ayrılır: tam dağıntı ərazisi, güclü dağıntı ərazisi, orta dağıntı ərazisi və zəif dağıntı ərazisi.

Dağıntı zonaları aşağıdakı kimi təsnif edilir:

- **Tam** dağıntı ərazisi**:** ΔPf > 50 kPa;
- **Güclü** dağıntı ərazisi**:** ΔPf = 30 - 50 kPa;
- **Orta** dağıntı ərazisi**:** ΔPf = 20 - 30 kPa;
- **Zəif** dağıntı ərazisi**:** ΔPf = 10 - 20 kPa.

3.2. Neytron silahı və onun zədələyici xüsusiyyətləri. Hidrogen bombası

Neytron silahı (və ya neytron bombası), əsasən neytronların nüfuzedici xüsusiyyətinə əsaslanaraq təsir edir. Bu silahın gücü təxminən 0,5 kiloton (kt) olur və bu enerji 2 min tonadək təsirə malikdir. Adi nüvə silahlarında nüfuzedici radiasiya üçün partlayışın yalnız 5%-i istifadə olunur, lakin neytron silahlarında radiasiyanın gücü 5-6 dəfə daha yüksəkdir. Bu səbəbdən, neytron bombası partlayışının təsir sahəsindəki insanlar zərbə dalğası və işıq şüalanmasından daha çox radiasiyaya məruz qalırlar.

Neytron bombası partlayışında gücünə görə (500-2000 ton) izafi təzyiq 300-500 metrlik məsafədə 0,3 kq/sm²-ə qədər çatır və bu məsafələrdə güclü dağıntılar baş verir. Təzyiq 650-1000 metrdə 0,1 kq/sm²-ə qədər azalır, bu bölgələrdə isə orta və zəif dağıntılar meydana gəlir. Nüfuzedici radiasiya 2000 metrdən çox məsafəyə təsir göstərir və bu sahədəki insanlar 10 rad-dan 100 min rad-a qədər şüalanmaya məruz qala bilərlər.

Neytron bombası partlayışından qorunmayan insanlar 800 metr məsafəyə qədər anında məhv ola bilərlər. 1600 metr məsafədə bir neçə gün sonra ölümcül təsirlər meydana gəlir, 2000

metr məsafədə isə şüa xəstəliyi baş verə bilər. Qışda və rütubətli havada neytron radiasiyasının təsir dairəsi yay aylarına nisbətən 1,2 dəfə daha qısa olur.

Hidrogen bombası

Hidrogen bombası, ya da termonüvə silahı, bəşəriyyətin inkişaf etdiyi ən güclü və dağıdıcı silah növlərindən biridir. Bu silah, nüvə silahlarının inkişafının ən yüksək mərhələsini təmsil edir və çox yüksək enerji sərfiyyatına malikdir. Hidrogen bombası, əsasən hidrogen izotoplarının (deyterium və tritium) birləşməsi nəticəsində əldə edilən enerji ilə işləyir. Bu tip silahın gücü, təsirləri və nəticələri onu yalnız hərbi, eyni zamanda strateji bir vasitəyə çevirir.

Hidrogen bombasının iş prinsipi, termonüvə birləşməsi adı verilən bir prosesə əsaslanır. Bu prosesdə hidrogen izotopları yüksək temperatur və təzyiq şəraitində birləşərək helium əmələ gətirir. Birləşmə nəticəsində çox miqdarda enerji sərf olunur və partlayış baş verir. Fisyon (nüvə bölünməsi) reaksiyası ilkin mərhələdə baş verir və bu, hidrogen bombasının termonüvə birləşməsi üçün tələb olunan yüksək temperatur və təzyiqi yaradır.

Hidrogen bombasının təsir sahəsi çox genişdir. Məsələn, 1 megaton (1.000.000 ton TNT ekvivalenti) gücündə bir hidrogen bombası, 10-20 kilometrlik bir radiusda bütün strukturları və

əraziləri məhv edə bilər. Bu, böyük şəhərləri, hərbi bazaları və geniş təbii əraziləri tamamilə yox edə bilər.

Hidrogen bombasının istehsalı olduqca mürəkkəb bir prosesdir və yüksək texnologiya tələb edir. Partlayış üçün tələb olunan yüksək temperatur və təzyiqi yaratmaq üçün çoxlu enerji və maddi sərfiyyat tələb olunur. Bu bombaların hazırlanması xüsusi reaktorlar və yüksək texnologiyalı cihazlar vasitəsilə həyata keçirilir. Hidrogen bombaları yalnız hərbi məqsədlərlə deyil, həm də strateji güc nümayişi olaraq istifadə edilir. Onun gücü və dağıdıcı təsiri siyasi və hərbi mübahisələrdə mühüm rol oynayır.

Hidrogen silahlarının yayılmaması üçün beynəlxalq müqavilələr mövcuddur. 1963-cü ildə qəbul edilmiş Testlərə Qadağa Konvensiyası ilə hidrogen bombalarının atmosferdə test edilməsi qadağan olunub. BMT və digər beynəlxalq təşkilatlar bu silahların yayılmasının qarşısını almağa çalışır.

3.3. Kimyəvi və bakterioloji silahlar. Zəhərləyici və güclü təsirli zəhərli maddələr

Kimyəvi silahlar, kütləvi qırğın silahlarından biri kimi, zəhərli maddələrdən və onların tətbiqi üçün istifadə edilən vasitələrdən ibarətdir. Kimyəvi silahların əsasında zəhərli maddələr dayanır. Bu maddələr, xüsusən hərbi, sənaye və təsərrüfat sahələrinə qarşı tətbiq edildikdə, insanların döyüş və əmək qabiliyyətini zəiflədə, işçi qüvvəsini, əhalini və hətta heyvanları sıradan çıxara bilər. Eyni zamanda, bitkilərə də böyük zərər vurulması mümkündür.

Kimyəvi silahların əsas xüsusiyyətləri aşağıdakılardır:

- maddi sərvətlərə təsir etmədən hədəfdə olan canlı qüvvəni zədələmək;
- zəhərlənmə prosesinin sürətlə baş verərək ciddi nəticələrə səbəb olması;
- nisbətən ucuz istehsala malik olması.

Kimyəvi silahlar müxtəlif xüsusiyyətlərinə görə müxtəlif kateqoriyalara ayrılır:

- orqanizmə təsir edən maddələrə görə.
- taktiki məqsədinə görə.
- təsir etdiyi sürətinə görə.
- dayanıqlı olma qabiliyyətinə görə.

- tətbiq edilən vasitənin görə.

Taktiki baxımdan bu silahlar iki əsas qrupa ayrılır:

1. öldürücü xarakterli kimyəvi silahlar;
2. zərərverici silahlar.

Təsir etdiyi sürətinə görə kimyəvi silahlar iki qrupa bölünür:

1. Tez təsir göstərən maddələr;
2. Gec təsir edən maddələr.

Təsir etdiyi müddətə görə isə bu silahlar iki növə ayrılır:

1. təsir müddəti dəqiqələri ötməyən uçucu maddələr;
2. təsir müddəti bir neçə saatdan bir neçə günə (həftəyə) qədər davam edən uçucu olmayan və ya dayanıqlı maddələr.

1992-ci ildə BMT-nin 47-ci Baş Assambleyasında Kimyəvi Silahlar Konvensiyasının qəbul edilməsi təklif olundu və bu konvensiya 1993-cü ilin 13 yanvarında Parisdə imzalandı. 160-dan çox ölkə, o cümlədən Azərbaycan bu konvensiyanı qəbul etmişdir. Azərbaycan 9 noyabr 1999-cu ildə bu konvensiyaya qoşulmuş, 30 mart 2000-ci ildə isə ölkə daxilində qüvvəyə minmişdir.

Soyuq müharibə dövründə, ABŞ və keçmiş Sovet İttifaqı arasında kimyəvi silahlar və nüvə döyüş sursatlarının hədəfə çatdırılması məqsədilə 31 avqust 1991-ci ildə "START - 1" və 3

yanvar 1993-cü ildə "START - 2" müqavilələri imzalanmışdır. Lakin, bu dövrlərdə kimyəvi və bioloji (bakterioloji) silahların tətbiqi və tədqiqatları davam etmişdir.

1992-ci ilin noyabrında BMT-nin Baş Assambleyasında qəbul edilən Kimyəvi və Bioloji Silahlar Konvensiyasının (Chemical Weapons Convention) hələ də tam şəkildə həyata keçirilmədiyi bildirilsə də, 1972-ci ildə qüvvəyə minən Bioloji Silahların Yaradılması və İstehsalının Qadağan Edilməsi haqqında müqavilə bir çox ölkələr tərəfindən təsdiq edilib.

XX əsrin əvvəllərində bioloji döyüş maddələrinin ilk dəfə I Dünya müharibəsində tətbiqi olmuşdur. 1918-1960-cı illər ərzində bioloji silahların elmi tədqiqatları aparılmış, bir çox dövlətlər tərəfindən bu sahə üzrə sınaqlar davam etdirilmişdir. Hətta bu silahların istehsalı hələ də gizli şəkildə davam etdirilməkdədir.

Son dövrlərdə kimyəvi və bioloji silahların xüsusiyyətlərinə bənzər çoxsaylı toksinlər mövcuddur. Bunlara Sibir xorası, botulizm, gənəgərçək toksinləri və digər bioloji orqanizmlər tərəfindən törədilən toksinlər daxildir.

Sənayenin müxtəlif sahələrində kimyəvi maddələrin istehsalı artdıqca, qəza təhlükəli kimyəvi maddələrin miqdarı da artır. Respublikada kimyəvi təhlükəli maddələr müxtəlif sahələrdə

istifadə olunur və bu maddələrin təsiri ciddi təhlükələr yarada bilər.

Kimyəvi təhlükəli maddələr

Qəza təhlükəli kimyəvi maddələrin saxlanıldığı qabların və tutarların xaricə axması, həm dinc dövrdə baş verə bilər, həm də müharibə zamanı nüvə partlayışının zərbə dalğası, adi silahların birbaşa təsiri və ya təxribatlar nəticəsində kimyəvi maddələrin yayılması baş verə bilər. Belə hallarda ikili zədələnmə ocaqları yaranır.

Nüvə və ya adi silahlarla havadan edilən zərbələr nəticəsində kimyəvi obyektlərdə qəza baş verərsə, kimyəvi maddələrin ətrafa yayılması mümkündür. Bu zaman kimyəvi maddələrin təmas etdiyi ərazilər zəhərlənmə ocaqları kimi təsnif edilir.

Ən çox istifadə olunan qəza təhlükəli kimyəvi maddələr:

1. **Ammonyak**

Ammonyak boğucu təsirli, kəskin naşatır iyli, rəngsiz bir qazdır. Havadan daha yüngüldür. Ammonyak yüksək konsentrasiyada gözlərə, yuxarı tənəffüs yollarına qıcıqlandırıcı təsir göstərir. Ammonyakın yüksək konsentrasiyası təngnəfəsliyə, kəskin öskürməyə və başgicəllənməsinə səbəb olur. Dəridə sıx

təmasda olduqda ağır yanıqlar törədir. Ammonyakı zərərsizləşdirmək üçün 1/20 nisbətində su istifadə edilir.

2. Xlor

Xlor, kəskin boğucu iyli, göyümtül-sarı rəngdə bir qazdır və havadan 2,5 dəfə ağırdır. Yuxarı tənəffüs yollarına qıcıqlandırıcı təsir göstərir, yüksək konsentrasiyalarda ağciyər ödeminə səbəb ola bilər. Xloru neytrallaşdırmaq üçün 1/120 nisbətində su istifadə olunur.

3. Sianid turşusu

Sianid turşusu rəngsiz və şəffaf maye olub, acı badam iyinə bənzəyir. Bu turşunun buxarları ilə nəfəs alarkən və ya dəriyə təmasda olduqda zəhərlənmələr baş verir. Sianid turşusunun zəhərli təsiri, buxarlarının daxilə keçməsi ilə yaranır.

4. Fosgen:

Fosgen, çürük ot iyi verən rəngsiz bir qazdır. Bu qazın buxarları ağciyərləri spesifik olaraq zəhərləyir, lakin torpağı və avadanlıqları zəhərləmir. Fosgenin təsiri zamanı gözlər və selikli qişalar zəif qıcıqlanır, lakin dəriyə təsir etmir.

Kimyəvi Zəhərlənmə Ocaqları

Kimyəvi silah tətbiq olunan və zəhərli maddənin yayıldığı ərazilərdə kimyəvi zəhərlənmə ocaqları yaranır. Bu ocaqlar, əhalinin, heyvanların və bitkilərin zədələnməsinə səbəb olur.

Kimyəvi zəhərlənmə ocağının ölçüləri, zəhərləyici maddələrin miqyasından, növündən, tətbiq edilmə üsulundan, meteoroloji şəraitdən və yerin relyefindən asılı olaraq dəyişir. Zəhərlənmə ocaqları iki əsas zonaya ayrılır:

- **Əsas zona** - Zəhərli maddənin birbaşa təsir etdiyi sahə.
- **İkinci zona** - Zəhərli maddənin buxarları və aerozollarının yayıldığı sahə.

3.4. Adi qırğın vasitələri və onların xarakteristikası

"Nüvə silahlarının" kəşfindən sonra "adi qırğın vasitələri" və "adi silahlar" anlayışları daha böyük zədələyici xüsusiyyətlərə malik döyüş vasitələrini ifadə etmək üçün istifadə olunmağa başlandı. Lakin müasir elmin və texnologiyanın inkişafı nəticəsində yaradılmış adi silahlar, artıq kütləvi qırğın vasitələri ilə müqayisə edilə biləcək dərəcədə dağıdıcı gücə malikdir. Bu silahlar həm sərbəst tətbiq oluna, həm də nüvə silahları ilə birlikdə istifadə edilərək düşmənin canlı qüvvəsini və texnikasını məhv edə bilər.

Adi qırğın vasitələri əsasən partlayıcı və yandırıcı maddələrin enerjisindən istifadə edən silah sistemləridir. Bu silahlara həmçinin soyuq silahlar da daxildir. Müasir döyüş arsenalında aşağıdakı vasitələr adi qırğın vasitələri sayılır:

- Yüksək dəqiqlikli silahlar;
- Ballistik raketlər;
- Kassetli bombalar;
- Artilleriya üçün mərmilər;
- Sualtı torpedolar;
- Kəşfiyyat-zərbə kompleksləri;
- Zenit və tank əleyhinə raket sistemləri;

Adi silahların birbaşa zədələyici təsirindən əlavə, müharibə zamanı aşağıdakı ikincili təhlükəli nəticələr də yarana bilər:

- atom Elektrik Stansiyaları və ya radioaktiv maddə saxlanılan obyektlərin zədələnməsi nəticəsində radiasiya ocaqlarının yaranması;
- kimyəvi zəhərlənmə zonalarının meydana gəlməsi
- kütləvi yanğınların baş verməsi;
- su anbarlarının və bəndlərin dağılması nəticəsində subasmalar və digər fəlakətlər.

Yandırıcı silahlar adi qırğın vasitələri arasında xüsusi yer tutur. Bu silahlar yüksək temperaturda yanan maddələrin istifadəsinə əsaslanır və canlı qüvvəyə, texnikaya, binalara, meşələrə və kənd təsərrüfatına qarşı geniş zədələyici təsir göstərir. Amerika hərbi təsnifatına əsasən, yandırıcı silahlar kütləvi qırğın vasitələri arasında yer alır və ciddi psixoloji təsir bağışlayır.

Yandırıcı maddələr əsasən üç qrupa ayrılır:

1. neft mənşəli yandırıcı maddələr;
2. metal əlavəli yandırıcı maddələr;
3. termit və onun əsaslı qarışıqları.

Ən geniş istifadə edilən yandırıcı maddələr:

- **Napalm:** Jeleyəbənzər, yapışqan xüsusiyyətli və 1000-1200°C temperaturda yanan maddədir. Yandırıcı təsiri 5-

10 dəqiqə davam edir. "Napalm B" isə daha effektiv olub suya belə yapışa bilir və sığınacaqlara nüfuz edir;

- **Piroqel:** Maqnezium və kömür qarışığı ilə 1600°C-ə qədər istilik yaradır. Sudakı maddələrdən ağırdır və dərini 1-3 dəqiqə ərzində ciddi şəkildə yandırır;
- **Termit:** Dəmir oksidi və alüminium qarışığından ibarət olub 3000°C-yə qədər istilik yaradır. Bu maddə metalların əriməsinə, betonların çatlamasına səbəb olur;
- **Fosfor:** Öz-özünə alovlanan və zəhərli tüstü buraxan maddədir. Plastik fosfor versiyası da mövcuddur və digər yandırıcı maddələrin alışdırılmasında istifadə olunur.

Kasset tipli bombalar 50-dən 800-dək kiçik kalibrli bombalarla təchiz edilir və geniş ərazini əhatə edir. Artilleriya sursatları isə termit, napalm və fosfor qarışıqlarından ibarət olub partlayış zamanı yanğınlar törədir.

Yandırıcı maddələrə məxsus silahlara qarşı ən etibarlı müdafiə vasitəsi sığınacaqlardır. Əgər belə maddə paltara və ya bədənə düşərsə, dərhal torpaq və ya qum ilə söndürülməlidir. Xüsusi mühafizə vasitələri və geyimlər bu tip silahlara qarşı mütləqdir.

III fəsil üzrə yoxlama suallar

1. Müasir silahların inkişafı ilə bağlı aşağıdakı hansı faktlar doğru deyil?

A) Atom dövrü ilə əhali və ərazilərə dağıdıcı faktorların çoxalması başladı.

B) Nüvə, kimyəvi və bakteriyoloji silahlar müasir dövrün kütləvi qırğın silahlarıdır.

C) Silahların inkişafı yalnız mülki müdafiə siyasətində yeniliklərə gətirib çıxardı.

D) Silahların inkişafı dünya təhlükəsizliyinə ciddi təhdidlər yaradır.

2. Nüvə silahının istifadə olunduğu ilk tarixlərdə hansı şəhərlər hədəf alınıb?

A) Yaponiyanın Tokio və Osaka şəhərləri

B) Yaponiyanın Hiroşima və Naqasaki şəhərləri

C) ABŞ-ın New York və Chicago şəhərləri

D) Fransa və Almaniya şəhərləri

3. Nüvə partlayışı zamanı işıq şüalanmasının zədələyici təsiri hansı şəkildə xarakterizə olunur?

A) Yalnız istilik zədələnməsinə səbəb olur.

B) Ən çox insan bədənində yanıqlara səbəb olur.

C) Yalnız gözlərə təsir edir, korluq yaradır.

D) Nəticədə böyük yanğınlar əmələ gəlir.

4. Nüvə silahlarının tətbiqi nəticəsində hansı zərərli təsir baş verir?

A) Yalnız zərbə dalğası yaranır.

B) Nüfuzedici radiasiya ilə ciddi zəhərlənmə yaranır.

C) Elektromaqnit impulsu ilə yalnız cihazlar sıradan çıxır.

D) Yalnız işıq şüalanması güclü zədələrə yol açır.

5. Radioaktiv çirklənmə zamanı zəhərlənmiş ərazilər necə təsnif olunur?

A) Çox təhlükəli, təhlükəli, güclü və mülayim (zəif) olaraq 4 zonaya bölünür.

B) Yalnız bir zəhərlənmə zonası var.

C) Zəhərlənmə ərazisi yalnız hərbi məqsədlərlə məhdudlaşdırılır.

D) Hər zəhərlənmiş ərazi eyni təsir gücünə malikdir.

6. Kimyəvi silahların əsas xüsusiyyətlərindən biri hansıdır?

A) İnsan orqanizminə təsir etmə xüsusiyyətinin olmaması

B) Yalnız canlı qüvvələri zədələmək imkanı

C) Yalnız maddi sərvətləri məhv etmə

D) Çox baha olması

7. Kimyəvi silahların təsir sürətinə görə hansı ikisi əsas tipə bölünür?

A) Tez təsir edən maddələr və gec təsir edən maddələr

B) Zəhərləyici maddələr və qıcıqlandırıcı maddələr

C) Öldürücü kimyəvi silahlar və ziyanverici kimyəvi silahlar

D) Uçucu maddələr və dayanıqlı maddələr

8. Kimyəvi Silahlar Konvensiyası nə vaxt qüvvəyə minmişdir?

A) 13 yanvar 1993-cü il

B) 29 aprel 1997-ci il

C) 9 noyabr 1999-cu il

D) 30 mart 2000-ci il

9. Hansı maddə boğucu təsirə malik və kəskin naşatır iyli olan qazdır?

A) Xlor

B) Ammonyak

C) Fosgen

D) Sianid turşusu

10. Kimyəvi zəhərlənmə ocaqları necə təsnif edilir?

A) Qısa müddətli və uzun müddətli

B) Əsas zona və ikinci zona

C) Yüksək təsirli və aşağı təsirli D) Quru və suya dayanıqlı

FƏSİL 4

FÖVQƏLADƏ HALLAR ZAMANI YARANMIŞ ŞƏRAİTİN AYDINLAŞDIRILMASI. MÜLKİ MÜDAFİƏ KƏŞFİYYATININ APARILMASI

4.1. Mülki müdafiə kəşfiyyatının növləri, təşkili və aparılması

Mülki müdafiə sistemində kəşfiyyat mühüm funksiyalardan biri hesab olunur və əhalinin təhlükəsizliyinin təmin olunmasında əsas tədbirlər sırasına daxildir. Onun əsas məqsədi – güclü istehsalat qəzası, təbii fəlakət və ya düşmən hücumu nəticəsində, həmçinin bu hallar baş verməmişdən əvvəl mövcud və ya mümkün ola biləcək təhlükələr barədə dəqiq məlumatlar əldə etməkdir. Bu məlumatlar mülki müdafiə rəhbərliyinin doğru qərar verməsi və əhalinin qorunması, habelə xilasetmə işlərinin operativ şəkildə təşkili üçün vacibdir.

Sülh dövründə kəşfiyyatın vəzifələrini aşağıdakılar təşkil edir:

1. ətraf mühitin – hava, su, torpaq, bitkiçilik və heyvandarlıq məhsullarının radioaktiv, kimyəvi və bakterial

maddələrlə çirklənməsinə dair müşahidələrin aparılması və laborator nəzarətin təşkili;

2. yoluxucu xəstəlik təhlükəsi olan bölgələrdə epidemik və epizootik vəziyyətə davamlı nəzarətin təmin edilməsi;

3. təbii fəlakət və ya istehsalat qəzası baş vermiş ərazilərdə yaranmış və ya yaranma ehtimalı olan vəziyyətin aşkarlanması.

Fövqəladə hallar və hərbi münaqişə şəraitində kəşfiyyatın qarşısında aşağıdakı məqsədlər dayanır:



Şəkil 4.1. Kimyəvi kəşfiyyatın aparılması

- istifadə olunmuş silahın növü, zərbə anı və yeri, nüvə partlayışının gücü və koordinatları haqqında məlumatların toplanması;
- radioaktiv çirklənmə səviyyələrinin və zəhərli maddələrin konsentrasiyasının təyini, zəhərli buludların yayılma trayektoriyasının izlənməsi;
- zədələnmə ocaqlarının sərhədlərinin müəyyən edilməsi;
- xilasetmə əməliyyatları aparılan bölgələrdə çirklənmə şəraitinin dəyişkənliyinin təhlili;
- mühafizə obyektləri və oradakı insanların vəziyyəti, onlara yardım imkanlarının qiymətləndirilməsi;
- kommunal şəbəkələr, rabitə xətləri, mülki müdafiə dəstələrinin hərəkət marşrutlarının və infrastrukturun hazırkı durumu;
- yanğın ocaqları və onların yayılma istiqamətləri;
- hidrotexniki qurğuların vəziyyəti və subasma təhlükəsinin olub-olmaması.

Kəşfiyyat daim fəal, fasiləsiz və məqsədyönlü şəkildə aparılmalı, toplanan məlumatlar isə operativ və dəqiq olmalıdır.

Kəşfiyyat qüvvələrinin və vasitələrinin əvvəlcədən formalaşdırılması və hazırlanması, onların fəaliyyət planının

dəqiq şəkildə qurulması və idarə olunması bu prosesin effektivliyi üçün vacibdir. Kəşfiyyat aşağıdakı növlərə bölünür:

- ***Yerüstü kəşfiyyat*** - ən dəqiq və əhatəli məlumatları təmin edən əsas kəşfiyyat formasıdır. Bütün mülki müdafiə qərargahları tərəfindən həyata keçirilir;
- ***Havadan kəşfiyyat*** - təyyarə və helikopterlər vasitəsilə həyata keçirilir. Fəlakət zonalarında ümumi mənzərəni tez bir zamanda müəyyənləşdirmək üçün istifadə olunur. Bu növ, əsasən Respublika mülki müdafiə qərargahının təşəbbüsü ilə təşkil edilir.
- ***Suda kəşfiyyat*** - limanlar, sahil infrastrukturu və sahilyanı obyektlərdə baş vermiş hadisələrin təhlilini aparmaq məqsədi daşıyır. Yüksək sürətli kater və gəmilər bu prosesdə istifadə olunur.

Ümumi və Xüsusi Kəşfiyyat

- **Ümumi Kəşfiyyat:** Fövqəladə hallardan sonra ilkin məlumatları əldə etmək məqsədilə həyata keçirilir. Bu kəşfiyyat zamanı müxtəlif səviyyəli qruplar, manqalar, müşahidə postları və laboratoriya nəzarət şəbəkəsi cəlb olunur.
- **Xüsusi Kəşfiyyat:** Radioloji, kimyəvi, mühəndis, epidemioloji, baytarlıq və fitopatoloji sahələrdə aparılır və bu sahələr üzrə ixtisaslaşmış kadrların iştirakı ilə həyata keçirilir.

Əldə olunan məlumatlar təhlil olunur və mülki müdafiə qərargahına çatdırılır.

Kəşfiyyatın İdarə Olunması və Planlaşdırılması

Kəşfiyyatın təşkilində əsas məsuliyyət mülki müdafiə qərargahının rəisinin üzərinə düşür. Qərargah rəhbərinin müavini kəşfiyyat fəaliyyətinin birbaşa təşkilatçısıdır və aşağıdakı funksiyaları icra edir:

- kəşfiyyat tədbirlərini planlaşdırmaq;
- qrupları və manqaları hazırlamaq və əraziyə yönləndirmək;
- toplanan məlumatları ümumiləşdirib rəhbərliyə təqdim etmək.

Kəşfiyyatın təşkili üçün əsas sənəd – **kəşfiyyat planıdır**. Bu plan əvvəlcədən tərtib olunur, yuxarı qərargahla razılaşdırılır və mülki müdafiə rəhbəri tərəfindən təsdiq edilir. Plana ərazi sxemləri əlavə edilir, burada idarəetmə məntəqələri, mühafizə qurğuları, kəşfiyyat bölmələrinin yerləşməsi və hərəkət marşrutları göstərilir.

Kəşfiyyat Qrupları və Onların Təchizatı

Kəşfiyyat qrupu bir komandir, rabitə manqası və bir neçə 3 nəfərlik kəşfiyyat manqalarından ibarət olur. Hər bir manqa 500–

800 metrlik ərazidə müstəqil fəaliyyət göstərə bilir. Qruplar aşağıdakılarla təmin olunur:

- Fərdi mühafizə vasitələri;
- Radioloji və kimyəvi kəşfiyyat cihazları;
- Dozimetrlər və həd nişanları;
- Rabitə və nəqliyyat vasitələri;
- Kəşfiyyat sxemi və fəaliyyət marşrutları.

Zəhərlənmə Sahələrinin Təyini və Nişanlanması

Zəhərlənmə ərazilərində kəşfiyyat aparılarkən 0.5 R/saat səviyyəsində radiasiya və ya kimyəvi maddələr aşkar edildikdə həmin bölgə nişanlanır. Həd nişanında aşağıdakılar qeyd olunur:

- Zəhərlənmənin növü və səviyyəsi;
- Ölçmə vaxtı;
- Nişanın yerləşdirildiyi yerin koordinatları.

Müşahidə və Laboratoriya Nəzarəti Şəbəkəsi (MLNŞ)

Nazirlər Kabinetinin 1993-cü il 28 iyul tarixli 409 saylı qərarı ilə təsdiq edilmiş **Müşahidə və Laboratoriya Nəzarəti Şəbəkəsi** aşağıdakı məqsədlərə xidmət edir:

- ətraf mühitin radioaktiv, kimyəvi və bakterial çirklənməsinə nəzarət;
- müvafiq dövlət qurumlarını vaxtında məlumatlandırmaq;

- zəruri mühafizə tədbirlərini operativ şəkildə həyata keçirmək.

MLNŞ-nə aşağıdakı qurumlar daxildir:

- Səhiyyə Nazirliyinin sanitar-epidemioloji xidmətləri;
- Kənd Təsərrüfatı Nazirliyinin baytarlıq və bitki mühafizə qurumları;
- Ekologiya və Təbii Sərvətlər Nazirliyinin laboratoriyaları;
- Daxili İşlər, Müdafiə və Fövqəladə Hallar nazirliklərinin struktur bölmələri;
- Müxtəlif nazirlik və icra orqanlarının radiasiya və kimyəvi müşahidə postları.

MLNŞ üç iş rejimində fəaliyyət göstərir:

1. **Gündəlik rejim** – adi şəraitdə fəaliyyət;
2. **Yüksək hazırlıq rejimi** – potensial təhlükə zamanı müşahidənin gücləndirilməsi;
3. **Fövqəladə rejim** – baş vermiş fövqəladə hallara cavab tədbirləri ilə bağlı genişləndirilmiş fəaliyyət.

Fövqəladə hallar baş verdikdə vəziyyətin operativ şəkildə qiymətləndirilməsi və şəraitin dəqiq müəyyənləşdirilməsi, qəza-xilasetmə və digər təxirəsalınmaz tədbirlərin effektiv planlaşdırılması və düzgün ardıcıllıqla icrası üçün əsas baza rolunu oynayır. Bu mərhələdə aparılan təhlil və qiymətləndirmə,

zərərin minimuma endirilməsi və əhalinin təhlükəsizliyinin təmin olunması baxımından strateji əhəmiyyət daşıyır.

Fövqəladə hallar zamanı qiymətləndirmə prosesi aşağıdakı əsas istiqamətlər üzrə həyata keçirilir:

1. Fövqəladə halın xarakteri və miqyası. Hadisənin növü (təbii fəlakət, texnogen qəza, bioloji təhlükə və s.), onun miqyası, əhali və ərazilər üçün yaratdığı təhlükənin səviyyəsi, təhlükəli zonaların sərhədləri və bu təhlükənin mümkün yayılma dinamikası öncədən proqnozlaşdırılır.

2. Qəza-xilasetmə və təxirəsalınmaz tədbirlərin təyini. Hadisəyə uyğun olaraq görülməsi vacib olan qəza-xilasetmə, tibbi yardım, yanğınsöndürmə və digər təcili işlərin növləri, onların həcmi və həmin tədbirlərin həyata keçirilməsi üçün mövcud icra şəraiti qiymətləndirilir.

3. Zərərin aradan qaldırılması üçün tələb olunan qüvvə və vasitələr. Əməliyyatların effektiv icrası üçün lazım olan canlı qüvvə və texniki vasitələrin növü, miqdarı, onların hazırlıq səviyyəsi, təyinat yerində yerləşməsi və idarə olunma qabiliyyəti təhlil olunur.

Kütləvi Qırğın Silahlarının Tətbiqi Halında Qiymətləndirmənin Xüsusiyyətləri

Fövqəladə hallar kompleksində ən təhlükəli və genişmiqyaslı nəticələr doğuran hallar sırasında **kütləvi qırğın silahlarının (nüvə, kimyəvi, bioloji və s.) tətbiqi ilə müşayiət olunan hadisələr** xüsusi yer tutur. Belə hallarda vəziyyətin qiymətləndirilməsi aşağıdakılara yönəlir:

- zərbə nəticəsində yaranmış zədələnmə ocaqlarının sərhədləri və zərərin intensivliyi;
- radioaktiv, kimyəvi və bioloji çirklənmə səviyyələri və onların ətraf mühitə təsir dairəsi;
- əhalinin zərərçəkmiş təbəqələrinin müəyyən edilməsi və təxliyə ehtiyaclarının qiymətləndirilməsi;
- sənaye və iqtisadiyyat obyektlərinin daşıdığı risklər, orada çalışan işçilərin vəziyyəti və təhlükəsizlik tədbirlərinin adekvatlığı.

Fövqəladə halların baş verdiyi şəraitdə vəziyyətin obyektiv qiymətləndirilməsi qəza-xilasetmə və digər təxirəsalınmaz tədbirlərin səmərəli icrası üçün əsas şərtlərdən biridir. Bu mərhələdə zəruri qüvvə və vasitələrə olan ehtiyac, onların real mövcudluğu və funksional imkanları nəzərə alınmaqla, ən optimal istifadə variantları müəyyən edilir.

Qiymətləndirmə nəticəsində formalaşdırılan təkliflər əsasında konkret qərarlar qəbul olunur və tətbiq edilir. Bu qərarlar

fövqəladə halın nəticələrinin operativ aradan qaldırılması, əhalinin müdafiəsi və iqtisadi itkilərin minimuma endirilməsi məqsədinə xidmət edir.

Vəziyyətin kompleks qiymətləndirilməsi aşağıdakı hallarda həyata keçirilə bilər:

1. Təbii və texnogen mənşəli fövqəladə hallar zamanı. Məsələn, zəlzələ, daşqın, torpaq sürüşməsi, sənaye qəzaları və s. hallarda vəziyyətin qiymətləndirilməsi tələb olunur.

2. Ərazi və obyekt daxilində baş verən qəza və fəlakətlər zamanı. Müəyyən müəssisə və ya obyektlərdə baş verən partlayış, yanğın, texniki nasazlıq və s. hadisələrin miqyası və nəticələri dəyərləndirilir.

3. Təhlükəli maddələrin daşınması zamanı yaranan fövqəladə hallar. Kimyəvi, radioaktiv və ya digər təhlükəli maddələrin daşınması zamanı baş verən qəzaların ətraf mühitə və əhali üçün yaratdığı təhlükə analiz olunur.

4. Kütləvi qırğın silahlarının tətbiqi halında. Nüvə, kimyəvi və bioloji silahların istifadəsi nəticəsində yaranan vəziyyətin qiymətləndirilməsi, həm mülki müdafiə tədbirlərinin təşkili, həm də xilasetmə resurslarının səmərəli istifadəsi baxımından həyati əhəmiyyət kəsb edir.

4.2. Kütləvi qırğın silahlarının tətbiqi nəticəsində yaranan şəraitin müəyyən olunması və vəziyyətin qiymətləndirilməsi

Fövqəladə hallar zamanı şəraitin müəyyənləşdirilməsi və vəziyyətin qiymətləndirilməsi dedikdə, həyata keçiriləcək qəza-xilasetmə və digər təxirəsalınmaz tədbirlərin ardıcıllığına təsir göstərən amillərin və səbəblərin araşdırılması və təhlili nəzərdə tutulur. Bu qiymətləndirmə aşağıdakı əsas meyarlar üzrə aparılır:

- fövqəladə halın növü və miqyası, əhali və ərazilər üçün yaratdığı təhlükənin səviyyəsi, təhlükəli zonaların sərhədlərinin müəyyənləşdirilməsi və onların yayılma ehtimalının proqnozlaşdırılması;
- qəza-xilasetmə və digər təxirəsalınmaz tədbirlərin növü, həcmi və icra şəraiti;
- hadisənin nəticələrinin aradan qaldırılması üçün tələb olunan qüvvə və vasitələrin növü və miqdarı, onların komplektləşdirilməsi, hazır vəziyyətə gətirilməsi və təyin olunmuş ərazilərdə yerləşdirilməsi.

Əhali, müxtəlif obyektlər və iqtisadi fəaliyyət sahələrində çalışan işçilərin fövqəladə halların nəticələrindən qorunması tədbirləri sırasında kütləvi qırğın silahlarının tətbiqi ilə yaranan şəraitin qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu tədbirlər,

baş vermiş fövqəladə hadisələrdən sonra aparılan ümumi vəziyyət qiymətləndirilməsinin mühüm tərkib hissəsidir.



Şəkil 4.2. Ardıcıl olaraq radioaktiv, bioloji və kimyəvi təhlükə simvolları

Fövqəladə hal nəticəsində yaranmış vəziyyətin qiymətləndirilməsi zamanı mövcud qüvvə və vasitələr, onların faktiki sayı və imkanları nəzərə alınaraq optimal istifadə variantları seçilir. Bu qiymətləndirmənin nəticəsində hazırlanmış təkliflər əsasında yekun qərarlar qəbul olunur və tətbiq edilir.

Vəziyyətin qiymətləndirilməsi aşağıdakı hallarda aparıla bilər:

- təbii, texnogen və digər növ fövqəladə hadisələr baş verdikdə;
- müxtəlif ərazilər və obyektlərdə qəza və ya fəlakətlər baş verdikdə;

- təhlükəli maddələrin daşınması zamanı baş verən hadisələr obyektlərin fəaliyyətinə təhlükə yaratdıqda;
- kütləvi qırğın silahlarının tətbiqi nəticəsində təhlükəli şərait yarandıqda.

IV fəsil üzrə yoxlama suallar

1. Mülki müdafiə kəşfiyyatının əsas məqsədi nədir?

A) Yalnız ətraf mühitin vəziyyətini öyrənmək

B) Təbii fəlakətlərə qarşı tədbir görmək

C) İstehsalat qəzası və təbii fəlakət sonrası vəziyyət barədə məlumat toplamaq

D) Silahların növünü müəyyən etmək

2. Mülki müdafiə kəşfiyyatının sülh dövründəki əsas vəzifələri hansılardır?

A) Silah tətbiqini izləmək

B) Hava, su və torpaq çirklənməsini müntəzəm izləmək

C) Müharibə sonrası vəziyyəti təhlil etmək

D) Yalnız əhaliyə xəbərdarlıq etmək

3. Müharibə sonrası mülki müdafiə kəşfiyyatının hansı məlumatları toplaması tələb olunur?

A) Əhalinin vəziyyəti və onların köçürülmə marşrutları

B) Radiasiya səviyyəsi və zəhərləyici maddələrin yayılma istiqaməti

C) Yalnız hərbi strategiyanın izlənməsi

D) Qəza bölgəsinin əhalisinin sayı

4. Yerinə yetirilən kəşfiyyat növlərindən hansıdır?

A) Radiasiya kəşfiyyatı

B) Dənizdən kəşfiyyat

C) Quru kəşfiyyatı

D) Bütün yuxarıdakılar

5. Havadan kəşfiyyat hansı məqsədlə həyata keçirilir?

A) Quru ərazilərində vəziyyəti izləmək

B) Təbii fəlakət və istehsalat qəzası zonalarını öyrənmək

C) Yalnız əhalinin sayını təyin etmək

D) Düşmənin hərəkətlərini izləmək

6. Kəşfiyyat qrupları hansı sahələrdə fəaliyyət göstərir?

A) Bütün mülki müdafiə qruplarında

B) Sadəcə təbii fəlakət zonalarında

C) Yalnız düşmən tərəfindən zədələnmiş ərazilərdə

D) Əhaliyə yardım göstərmək məqsədilə

7. Kəşfiyyatın hansı növü xüsusi mütəxəssislər tərəfindən həyata keçirilir?

A) Ümumi kəşfiyyat

B) Xüsusi kəşfiyyat

C) Yerinə yetirilən kəşfiyyat

D) Havadan kəşfiyyat

8. Fövqəladə hallarda mülki müdafiə kəşfiyyatını təşkil edən əsas sənəd hansıdır?

A) Təhlükəsizlik planı

B) Kəşfiyyat planı

C) İstifadə planı

D) Fövqəladə vəziyyət planı

9. Mülki müdafiə kəşfiyyatını təşkil edərkən kim məsuliyyət daşıyır?

A) Səhiyyə Nazirliyi

B) Müdafiə Nazirliyi

C) Mülki müdafiə qərargahının rəisi

D) Fövqəladə Hallar Nazirliyi

10. Radiasiya və kimya müşahidə postlarının əsas vəzifəsi nədir?

A) Zədələnmiş əraziləri təhlil etmək

B) Radiasiya və kimyəvi zəhərlənmələri aşkar etmək

C) Yalnız əhalinin müalicəsini təşkil etmək

D) Fəlakət bölgələrinə yardım göndərmək

FƏSİL 5

FÖVQƏLADƏ HALLAR ZAMANI ƏHALİNİN MÜHAFİZƏSİ VƏ KÖÇÜRÜLMƏSİ (EVAKUASİYA). QƏZA-XİLASETMƏ VƏ DİGƏR TƏXİRƏSALINMAZ İŞLƏR

5.1. Fövqəladə hallar baş verdiyi zaman əhalinin mühafizəsinin əsas prinsipləri

Azərbaycan Respublikasının ərazisində sülh və müharibə dövrlərində baş verən fövqəladə hallarda əhalinin mühafizəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli, 700 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalinin mühafizəsinin Əsas Prinsipləri" sənədi əsasında tənzimlənir. Bu sənədə əsasən, sülh və müharibə şəraitində baş verən fövqəladə hadisələr zamanı əhalinin qorunması Mülki Müdafiə sisteminin əsas vəzifələrindən biri sayılır.

Sülh dövründə əhali əsasən təbii və texnogen mənşəli hadisələrdən qorunmalıdırsa, müharibə zamanı müasir qırğın vasitələrinin tətbiqi nəticəsində, həmçinin strateji və potensial təhlükə daşıyan obyektlərin düşmən tərəfindən zədələnməsi ilə

meydana gələn ikincil zədələyici amillərdən mühafizə olunmalıdır.

Əhalinin mühafizəsinə dair planlaşdırılan tədbirlərin miqyası "məqsədyönlü və kifayət qədər" prinsipi əsasında müəyyən edilir. Bu prinsip aşağıdakı istiqamətləri əhatə edir:

- fövqəladə halların elmi proqnozu əsasında optimal mühafizə üsullarının seçilməsi;
- mülki müdafiə üzrə öhdəliklərin xalq təsərrüfatı sahələrinin ehtiyaclarına uyğunlaşdırılması;
- mülki müdafiə obyektlərinin tikintisində müasir normativ və texniki standartların tətbiqi;
- istifadə olunan mühafizə vasitələrinin həm sülh, həm də müharibə şəraitində yararlılığının təmin edilməsi;
- mühafizə tədbirlərinin sosial və iqtisadi inkişaf planlarında prioritet kimi nəzərə alınması.

5.2. Fövqəladə hallarda köçürülmə (təxliyə, evakuasiya) və onun təşkili

Fövqəladə hallarda əhalinin mühafizəsinin ən səmərəli üsullarından biri də əhalinin fəlakət və ya qəza zonalarından təxliyəsidir. Bu proses, xəbərdarlıq siqnallarından sonra televiziya, radio və ya səsgücləndiricilər vasitəsilə əhaliyə təxliyə məntəqələrinin ünvanı, toplanma vaxtı, nəqliyyat vasitələrinin nömrələri və yerləşdiriləcəkləri ərazilər barədə məlumatların çatdırılması ilə həyata keçirilir. Yerli icra hakimiyyəti orqanları və müvafiq müəssisə rəhbərləri əhalinin təhlükəsiz şəkildə köçürülməsi və təminatı üçün zəruri tədbirlər görməlidirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 6 avqust tarixli 438 saylı qərarı ilə "Sülh və Müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında" Əsasnamə qəbul edilmişdir. Bu sənəd fövqəladə hallarda əhalinin köçürülməsi tədbirlərinin planlaşdırılması və icrası ilə bağlı əsas tələbləri müəyyən edir.

Köçürmə tədbirləri sülh dövründə təbii fəlakətlər və texnogen qəzalar zamanı, müharibə dövründə isə kütləvi qırğın silahlarının tətbiqi təhlükəsi yaranarkən əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirilir. Müasir dövrdə köçürmə tədbirləri, məsələn, II Dünya müharibəsindəki kimi uzaq ərazilərə

deyil, mümkün zərbə ehtimalı olan şəhərlərin ətrafındakı təhlükəsiz zonalara yönəldilir.

Köçürmə (təxliyə) – əhalinin həyat və sağlamlığı üçün təhlükə yaranan ərazilərdən mütəşəkkil şəkildə çıxarılaraq təhlükəsiz bölgələrə yerləşdirilməsi üzrə kompleks tədbirlər sistemidir. Bu tədbirlər, yaranmış şəraitdən asılı olaraq, ya qabaqcadan, ya da təhlükə əhali üzərinə birbaşa təsir etməyə başladıqda dərhal həyata keçirilməlidir.

Köçürmə tədbirləri müxtəlif ehtimallar nəzərə alınaraq çoxvariantlı şəkildə planlaşdırılmalı, düşmənin adi və ya kütləvi qırğın silahlarından istifadə ehtimalı, təbii fəlakətlər və istehsalat qəzaları da nəzərə alınmalıdır. Bu tədbirlər yaranmış vəziyyətə uyğun olaraq çevik və səmərəli şəkildə tətbiq olunmalıdır.

Tarixən də Azərbaycanda müxtəlif fövqəladə hallarda əhalinin təhlükəsiz zonalara təxliyəsi həyata keçirilmişdir. Böyük Vətən müharibəsi və I Qarabağ müharibəsi dövründə belə köçürmələr həyata keçirildiyi kimi, II Qarabağ müharibəsi zamanı da döyüş bölgələrinə yaxın ərazilərdə yaşayan əhali təhlükəsiz zonalara yerləşdirilmişdir.

Sülh dövründə də analoji tədbirlər həyata keçirilmişdir. Məsələn, 1986-cı ildə Çernobıl AES-də baş vermiş qəza nəticəsində 30 km-lik ərazi daxilindəki yaşayış məntəqələrindən əhali təxliyə olunmuşdur. Həmçinin, 2010-cu ildə Kür çayının daşması, 2012-ci ildə Zaqatalada, 2011 və 2023-cü illərdə



Şəkil 5.1. Köçürmə tədbirləri

Türkiyədə baş verən zəlzələlər, 1966-cı ildə Özbəkistanın Daşkənd şəhərindəki dağıdıcı zəlzələ və digər hadisələr zamanı da əhalinin köçürülməsi tədbirləri görülmüşdür.

Təxliyə zamanı əhali əvvəlcədən müəyyən edilmiş siqnallar və rəsmi məlumatlar əsasında hərəkət etməli, təyin olunmuş marşrutlar üzrə təhlükəsiz ərazilərə yönləndirilməlidir.

Başqa sözlə, köçürmə (təxliyə) təbii fəlakətlər, istehsalat qəzaları, müharibələr və digər fövqəladə hallar zamanı əhalinin yaranan təhlükələrdən qorunması məqsədilə fəlakət zonasından çıxarılaraq təhlükəsiz ərazilərə yerləşdirilməsi prosesini ifadə edir. Təxliyədən əvvəl və müddətində əhali xüsusi siqnallar və rəsmi qurumların məlumatları əsasında hərəkət etməlidir.

Köçürmə tədbirləri fövqəladə halların baş verməsi ehtimal olunan ərazilərdə əvvəlcədən planlaşdırılmalı, sülh və müharibə dövrlərindəki fövqəladə hallarda isə ya əvvəlcədən, ya da təhlükəli amillər əhaliyə birbaşa təsir etməyə başladıqda qısa müddətdə həyata keçirilməlidir. Köçürmə işləri təbii fəlakətlər, güclü istehsalat qəzaları baş vermə ehtimalları, müasir silahlar və kütləvi qırğın vasitələrinin tətbiqi, həmçinin fövqəladə vəziyyətin elan edilməsi nəzərə alınmaqla müxtəlif variantlarda yerinə yetirilməlidir.

Köçürmə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi üçün nəzərə alınmalı olan təhlükəli rayonlar:

- şəhərlərin, yaşayış məntəqələrinin və xalq təsərrüfatı obyektlərinin yaxınlığında potensial radioaktiv və ya kimyəvi zəhərlənmə zonaları;
- ehtimal olunan təbii fəlakət, güclü istehsalat qəzası zonaları və fəlakətli daşqın sahələri, həmçinin fövqəladə vəziyyətin tətbiq edildiyi ərazilər;
- silahlı münaqişələr zamanı hərbi əməliyyatların aparıldığı sərhəd bölgələri və cəbhə ətrafı zolaqlar;
- düşmən hücumu gözlənilən şəhərlərin və müstəqil obyektlərin ətrafında yaranan dağıntı zonaları.

Köçürüləcək əhalinin təhlükəsiz zona yerləşdiriləcəyi yaşayış məntəqələrinin müəyyən edilməsi, hazırlanması və təşkil edilməsi işi hələ sülh dövründə başlamalıdır.

Fövqəladə hallar zamanı isə bu işlər tamamilə başa çatdırılmalıdır. Bu məqsədlə:

- nəqliyyat yolları təkmilləşdirilməli və yenidən təşkil edilməlidir;
- mövcud rabitə sistemləri, o cümlədən idarəetmə orqanlarının istifadə etməsi üçün inkişaf etdirilməlidir;
- mənzil fondu, tibb, kommunal xidmətlər, mədəni-maarif, ticarət müəssisələri və digər sahələr köçürülən əhalinin

yerləşdirilməsi və xidmət göstərilməsi üçün hazır vəziyyətə gətirilməlidir;

- əlavə su təchizatı məntəqələri yaradılmalı, mühəndis-texniki tədbirlər həyata keçirilməlidir.

Təhlükəsiz zona — düşmən hücumunun gözlənildiyi şəhərlər və müstəqil obyektlərin ətrafında ehtimal olunan dağıntı zonalarından və digər təhlükəli ərazilərdən kənarda əhalinin qəbul edilməsi və yerləşdirilməsi üçün uyğun olan ərazidir. Təhlükəsiz zona aşağıdakı şərtləri təmin etməlidir:

- müasir silahların təsirindən və daşqınlardan əhalinin mühafizəsi;
- müəssisə işçilərinin təhlükəsiz zonaya minimal vaxt sərf edərək daşınması;
- mülki müdafiə qüvvələrinin zədələnmə ocaqlarına asan şəkildə daxil olması;
- gigiyena və sanitariya şəraitinin təmin edilməsi.

Köçürülmə prosesi ərazinin təhlükə dərəcəsinə uyğun olaraq təşkil edilir. Əhali təhlükəsiz zonaya köçürülərkən aşağıdakı prinsiplər tətbiq edilir:

- **İstehsalat prinsipi** — istehsalatda çalışan işçilər və onların ailə üzvləri, təhsil alanlar obyektlər üzrə təhlükəli zonalardan çıxarılıb təhlükəsiz ərazilərə yerləşdirilir.

- **Ərazi prinsipi** — qalan əhali, əsasən yaşayış yerindən təhlükəsiz ərazilərə köçürülür.

Köçürülən əhalinin qeydiyyatı üçün şəxsiyyət vəsiqəsi və köçürülənlərin siyahısı vacib sənədlərdir. Təxliyə zamanı vacib əşyalar – paltar, ayaqqabı, yataq ləvazimatları və ərzaq kimi əşyalar götürülməlidir. Ayrıca hər kəs içməli su və təcili ehtiyac üçün lazım olan digər ləvazimatları özləri ilə götürməlidir.

Təbii fəlakətlər zamanı köçürmə:

- **Zəlzələ zamanı:** əhali binaları tərk edib açıq sahələrə çıxmağa çalışmalıdır.
- **Daşqın zamanı:** əhali təhlükəli zonadan çıxarılır və yaxın yaşayış məntəqələrinə köçürülür.
- **Sel və sürüşmələr zamanı:** əhali təhlükəsiz zonasına piyada və ya nəqliyyat vasitəsi ilə köçürülür.
- **Yanğınlar zamanı:** əvvəlcədən hazırlanan təxliyə planına uyğun olaraq əhali təhlükəsiz ərazilərə yönləndirilir.
- **Kimyəvi və radioaktiv təhlükələr zamanı:** zəhərli maddələrin yayılmasından əvvəl əhali təxliyə edilir.
- **Müharibə dövründə köçürmə:** müharibə zamanı iri şəhərlərin əhalisi təhlükəsiz zonalara çıxarılır, beləliklə müasir qırğın silahlarının təsirindən tələfatın azaldılması məqsəd qoyulur.

Köçürülmə zamanı davranış qaydaları:

- elektrik və qaz cihazlarını söndürmək;
- kənd təsərrüfatı heyvanlarını və yemlərini təhlükəsiz yerə yığmaq;
- fövqəladə hallara hazırlıq çantasını hazırlamaq və təxliyə məntəqələrinə gəlmək.
- Çantanın üzərində ad, soyad, yaşayış yeri və köçürülmə məntəqəsinin ünvanı qeyd olunmalıdır. Nitq qüsurlu insanlar və uşaqlar üçün xüsusi məlumatlar çantanın üzərinə əlavə olunmalıdır. Köçürülmə zamanı köməyə ehtiyacı olanlara yardım göstərilməli və rəsmi qurumların göstərişlərinə əməl edilməlidir.

Şəkil 5.2. Köçürülən əhalinin müvəqqəti yerləşdirilməsi



5.3. Fərdi mühafizə vasitələri və kollektiv mühafizə qurğuları

Fərdi mühafizə vasitələri — əhalini kimyəvi, bioloji və radioloji təhlükələrdən, eləcə də toz, dəm qazı, şüalanma və digər zərərli təsirlərdən qorumaq məqsədilə istifadə edilən xüsusi vasitələrdir. Bu vasitələr fövqəladə hallar və müharibə dövründə, xüsusilə də kütləvi qırğın silahlarının tətbiqi zamanı insanların orqanizminin təhlükəli maddələrlə təmasını minimuma endirmək məqsədilə geniş istifadə olunur.

Fərdi mühafizə vasitələri iki əsas kateqoriyaya ayrılır:

1. **Tənəffüs orqanlarını qoruyan vasitələr**
2. **Dəri səthini qoruyan vasitələr**

Tənəffüs orqanlarını qoruyan vasitələr

Bu vasitələr nəfəs alma zamanı zərərli maddələrin orqanizmə daxil olmasının qarşısını almaq üçün filtrasiya və ya təcridetmə prinsipinə əsaslanaraq tənəffüs sistemini qoruyur.

Azərbaycan Respublikasında mülki müdafiə məqsədilə istifadə olunan əsas tənəffüs mühafizə vasitələri aşağıdakılardır:

1. Əleyhqazlar

Əleyhqazlar zəhərli maddələrin, qazların və digər təhlükəli hissəciklərin tənəffüs yollarına daxil olmasının qarşısını alır və aşağıdakı tiplərə bölünür:

- **Süzgəcli əleyhqazlar** – bu tip əleyhqazlar zərərli maddələri filtrasiya etməklə nəfəs alınan havanı təmizləyir. Mülki müdafiə sistemində istifadə olunan süzgəcli əleyhqaz modellərinə aşağıdakılar daxildir:



Şəkil 5.3. QP-5 əleyhqazı



Şəkil 5.4. QP-7 əleyhqazı

- QP-5, QP-5m, QP-7, QP-7v, QP-9 – (QP — mülki əleyhqaz tipli modellər)
- Uşaqlar üçün: DP-6, DP-6m (uşaq əleyhqazları), PDF-7, PDF-7d (məktəbəqədər uşaqlar üçün), PDF-7ş (məktəblilər üçün)

- **Təcridedici əleyhqazlar** – bu əleyhqazlar nəfəs alma üçün ətraf mühitdən hava qəbul etmir, əvəzində xüsusi regenerativ

mexanizmlə və ya oksigen balonları vasitəsilə nəfəs almanı təmin edir. Bu tip vasitələr tam təcridetmə

- funksiyası ilə tənəffüs orqanlarını mühitlə təmasdan qoruyur. Məşhur modellər:
  - İP-4, İP-5, İPP-6
  - Oksigenlə təchiz olunan növlər: KİP-5, KİP-7, KİP-8

2. Respiratorlar



Şəkil 5.5. İPP-4 əleyhqazı



Şəkil 5.6. İPP-6 əleyhqazı

Respiratorlar bakterial aerozollar, radioaktiv tozlar və yanğın zamanı yaranan zəhərli tüstülərdən qoruma məqsədilə istifadə olunur. Əleyhqazlara nisbətən daha yüngül və istifadədə rahat olan bu vasitələr yüksək zəhərli konsentrasiyalı mühitlərdə tam qoruma təmin etmir. Hal-hazırda geniş tətbiq olunan respirator modellərinə **R-2** və **R-2d** daxildir.



Şəkil 5.7. R-2 tipli respirator

Sənaye Əleyhqazları və Sadə Mühafizə Vasitələri

Sənaye əleyhqazları, əsasən kimyəvi və zərərli maddələrlə işləyən istehsalat sahələrində çalışanların tənəffüs orqanlarını qorumaq məqsədilə müəssisələr tərəfindən təmin edilən vasitələrdir. Bu əleyhqazlar müəssisənin spesifik təhlükələrinə uyğun olaraq seçilir və istifadə edilir.

Ən sadə tənəffüs mühafizə vasitələri isə vətəndaşlar tərəfindən sadə vasitələrlə hazırlanaraq istifadə edilə bilən qoruyucu vasitələrdir. Bu vasitələrə tozdan qoruyan parça maskalar (PTM-1) və pambıqlı tənzif sarğılar aiddir. Onlar kütləvi

istifadə üçün əlverişli olub, xüsusilə fövqəladə hallarda ilkin qoruyucu tədbir kimi tətbiq edilir.

Əleyhqazların Geyinilmə Qaydası

Əleyhqazın effektiv qoruma təmin etməsi üçün onun düzgün taxılması vacibdir. Geyinmə qaydası aşağıdakı kimidir:

- baş qaytanları düzgün tənzimlənir;
- maska çənə nahiyəsindən yerləşdirilərək digər əl ilə qaytanlar başa keçirilir;
- qaytanların baş və boyun hissəsində bərabər paylanmasına və dönməməsinə nəzarət olunur;
- boyun qaytanları dartılaraq maskanın kip oturması təmin edilir;
- baş və boyun qoruyucu qaytanlar yenidən sıxılır, gicgah hissələri tənzimlənir;
- qaytanların həddindən artıq sıxılması narahatlıq yarada bilər, bu səbəbdən optimal sıxılıq təmin edilməlidir.

Dərinin Mühafizəsi üçün Vasitələr

Dərinin mühafizəsi üçün nəzərdə tutulan vasitələr insan bədəninin açıq nahiyələrini, geyim və ayaqqabıları zəhərləyici maddələrdən, radioaktiv tozlardan, yoluxucu xəstəlik törədicilərindən və işıq şüalanmasından qorumaq üçün istifadə olunur.

Ən çox istifadə olunan mühafizə vasitələrindən biri **OZK** (ümumqoşun mühafizə komplekti) və **L-1** tipli yüngül mühafizə kostyumudur. **L-1 kostyumu** zəhərli maddələr, turşular, qələvilər, duz məhlulları, neft məhsulları və bioloji təhlükəli maddələrdən qoruyur. Onun tərkibinə aşağıdakılar daxildir:



Şəkil 5.8. Əleyhqazın geyinilmə ardıllığı

- rezinləşdirilmiş parçadan tikilmiş başlıqlı köynək;
- corablı şalvar;
- ikibarmaqlı əlcəklər;
- şlemaltlıq (baş örtüyü).

Müxtəlif Səviyyəli Mühafizə Dəstləri

Fərdi mühafizə kostyumları funksionallıq səviyyəsinə görə A, B, C və D kateqoriyalarına bölünür:

- **A səviyyəsi**: Tam təcridedici skafandr kostyumu, rezin əlcəklər (daxili və xarici), metal möhkəmləndiricili rezin çəkmələr və sıxılmış hava aparatı.

- **B səviyyəsi**: Kombinezon tipli mühafizə geyimi, sıxılmış hava aparatı, ikili əlcəklər və polad uclu rezin çəkmələr.



Şəkil 5.9. A səviyyəli mühafizə dəsti







Şəkil 5.10. B səviyyəli mühafizə dəsti

- **C səviyyəsi**: B səviyyəsinə bənzərdir, lakin təcridedici əleyhqaz əvəzinə süzgəcli əleyhqaz istifadə olunur. Deqazasiya və dezinfeksiya işləri üçün nəzərdə tutulur.



Şəkil 5.11. C səviyyəli mühafizə dəsti

- **D səviyyəsi**: İş geyimi səviyyəsində olub, gündəlik istehsalat və xilasetmə işləri zamanı istifadə olunur.

Kollektiv Mühafizə Qurğuları



Şəkil 5.12 Sığınacağın girişi

Azərbaycan Respublikasında mülki müdafiə sistemi çərçivəsində əhalinin kollektiv mühafizəsini təmin edən müxtəlif növ sığınacaqlar inşa edilmişdir. Bu qurğular fövqəladə hallarda –

nüvə partlayışları, kimyəvi və bioloji hücumlar və digər fövqəladə hallar zamanı əhalinin qorunması üçün nəzərdə tutulmuşdur.

Kollektiv mühafizə qurğuları aşağıdakı meyarlara görə qruplaşdırılır:

1. **Yerləşməsinə görə:**
   - **Birgə tikilənlər** – adətən binaların zirzəmilərində yerləşdirilir.
   - **Ayrı tikilənlər** – açıq ərazilərdə, potensial uçqun riskindən uzaq ərazilərdə inşa olunur və torpaq örtüyü ilə möhkəmləndirilir.
2. **Tikilmə müddətinə görə:**
   - **Əvvəlcədən tikilənlər** – sülh dövründə inşa olunur.
   - **Tez tikilənlər** – zərurət yarandıqda 24–48 saat ərzində quraşdırılır.
3. **Təyinatına görə:**
   - **İdarəetmə məntəqələri** – fövqəladə hallarda qərarların verilməsi üçün nəzərdə tutulur.
   - **Əhalinin mühafizəsi üçün sığınacaqlar**.
4. **Həcminə görə:**
   - **Kiçik** – 150–600 nəfərlik
   - **Orta** – 600–2000 nəfərlik
   - **Böyük** – 2000 nəfərdən çox əhali üçün
5. **Mühafizə xassələrinə görə:**

- **Sığınacaqlar** – nüvə partlayışı, zəhərləyici maddələr və bakterial hücumdan tam qoruma təmin edir.
- **Radiasiya əleyhinə daldalanacaqlar** – şüalanma və radiasiya fonunu azaltmaq üçün istifadə olunur.
- **Sadə daldalanacaqlar** – müvəqqəti mühafizə üçün nəzərdə tutulur; yalnız ilkin qorunma təmin edə bildiyindən, burada olan şəxslərin əlavə olaraq əleyhqazlardan istifadə etməsi tövsiyə edilir.



Şəkil 5.13. Sığınacağın hermetik qapısı

Sığınacaqlar	
əsas	**yardımçı**
sığınma otaqları	süzgəcli ventilyasiya otağı
idarəetmə məntəqəsi	sanitariya qovşağı
tibb məntəqəsi	mühafizəli dizel elektrik stansiyası
	elektrik lövhəsi
	drenaj su vurma stansiyası
	balonlar anbarı
	tambur şlüzlər
	ərzaq anbarı
Radiasiya əleyhinə daldalanacaqlar	
əsas	**yardımçı**
sığınma otaqları	ventilyasiya otağı
